**Əli Əhmədov: "Azərbaycan islahatlara açıq ölkədir"**




Bax 6

**MSK bülletenlərin çapına yaxın günlərdə başlayacaq**



Bax 6

**"Azərbaycan və Avropa İttifaqı təhlükəsizlik, nəqliyyat və enerji sahələrində yaxından əməkdaşlıq edir"**



Bax 7



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 011 (5976) 23 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident Davosda açıqladı: "Milli maraqlarımız həmişə birinci yerdədir"




Bax 2

*"Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz"*

## OPEC-in baş katibi: "Biz bunu heç vaxt unutmayacağıq"



Bax 4

## YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuşc Novruzov seçicilərlə görüşüb



Yeni Azərbaycan Partiyası parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində YAP tərəfindən irəli sürülmüş deputatlığa namizədlər Naxçıvan Muxtar Respublikası ərazisində də seçicilərlə fəal görüşlər keçirirlər.

Əvvəlcə Yeni Azərbaycan Partiyasının muxtar respublika üzrə irəli sürdüyü deputatlığa namizədlər müasir müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar...

Bax 7

## Azərbaycan MDB-də müəllif turları üçün ən populyar üçlüyə daxildir



Azərbaycanda Bakı, Qobustan, Şəki və Qəbələ MDB ölkələrində müəllif turları üçün ən populyar istiqamətlər siyahısına daxil edilib. Belə ki, Rusiyanın "TurStat" turizm portalı rusiyalı turistlər üçün MDB-də müəllif turlarının ən populyar istiqamətlərinin siyahısını təqdim edib. Bu siyahıya, Azərbaycandan Bakı, Qobustan, Şəki və Qəbələ ilə yanaşı, həmçinin Qazaxıstandan Almatı şəhəri və Almatı vilayəti, Burabay və Aktau, Belarusdan Minsk şəhəri, Minsk vilayəti və Vitebsk, Özbəkistandan Buxara və Səmərqənd və s. daxil edilib...

Bax 6

**Müxalifətin imici ləkəlidir**



Bax 13

**Ermənistanda dövlət çevrilişinə cəhd olubmu?**



Bax 14

**Yeni bir virus xəbərdarlığı**



Bax 16

# Prezident Davosda açıqladı: "Milli maraqlarımız həmişə birinci yerdədir"

## *Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında iştirak edib*

***Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı panelin moderatorunun suallarını cavablandırıb.***




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. Dediyimiz kimi, Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz - Moskvaya, yoxsa Pekinə?

**Prezident İlham Əliyev:** Bakıya.






**Moderator:** Bakıya...

**Prezident İlham Əliyev:** Bəli, bizim qonşularımıza münasibətdə siyasətimiz mehribandır, lakin, eyni zamanda, milli maraqlarımız həmişə birinci yerdədir. Buna görə də müstəqillik illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatları həyata keçirdiyimizə görə əldə olunmuşdur. Bizim nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik qiymətləndirmələrində də öz əksini tapmışdır. İnfrastruktur sahəsi çox yüksək səviyyədə inkişaf edib. Yolların inşası və keyfiyyətinə gəldikdə, biz dünyada iyirmi yeddinci yerdə qərarlaşmışıq.

**Moderator:** Çox gözəl. Hökuməti yeniləməyinizi müşahidə etmək mənim üçün maraqlı idi. Siz gənc texnokratları sıralarınıza cəlb etmisiniz.

**Prezident İlham Əliyev:** Bəli, tamamilə doğrudur, hökumət dəyişdi. Hökumətə yaxşı təhsil almış, müasir baxışlı yeni insanlar dəvət olunmuşdur. Çünki dəfələrlə ictimaiyyətə açıqlamalarımda dediyim kimi, iyirmi birinci əsrdə iyirminci əsrin baxışı ilə uğur qazanmaq olmaz. Buna görə də yeni insanlar nəinki təkcə hökumətə, eyni zamanda, çox böyük dəyişikliklərə məruz qalmış Prezident Administrasiyasına da gətirilmişdir. Gələn ay bizdə erkən parlament seçkiləri keçiriləcək. Bu seçkilərin məqsədi insanlara etimad göstərdikləri namizədləri seçmək üçün imkan vermək idi. Əminəm ki, seçkilərdən sonra parlament də islahatların davamının mühüm hissəsi olacaqdır.

**Moderator:** Həyatlarının yaxşılaşdırılmasını istəyən azərbaycanlılar üçün Siz yeni hökumətin onlara nələr verəcəyinə ümid edirsiniz, onlar növbəti bir və ya iki ildə hansı fərqləri müşahidə edəcəklər?

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, əvvəllər biz əsasən infrastruktur layihələrinə sərmayə yatırmışıq. Buna görə yenə də Davos Forumuna əsasən Azərbaycan bu gün elektrik enerjisinə çıxış imkanına görə ikinci yerdədir. Azərbaycanda qazlaşdırma səviyyəsi 96 faiz təşkil edir. Biz 16 min kilometr yol, 3 mindən çox məktəb və 700 xəstəxana inşa etmişik. Lakin bunlar dövlət sərmayəsinin bir hissəsi idi. İndi bizə nə lazımdır? Bizdən yaxşı idarəçilikdə, şəffaflıqda, hesabatlılıqda, həyat və yaşayış standartları ilə bağlı meyarların Avropa İttifaqının standartlarına daha da yaxınlaşması üçün yeni yanaşma tələb olunur. Hesab edirəm ki, bu, mümkündür. Buna nail olmaq olar, çünki bizim güclü siyasi dəstəyimiz var.

*Ardı Səh. 3*

# Prezident Davosda açıqladı: "Milli maraqlarımız həmişə birinci yerdədir"

*Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumunun "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasında iştirak edib*




Əvvəli-Səh-2

Yenə də mən Azərbaycan hökumətinin strateji baxışını 10-cu yerə, hökumətin sabitlik təmin etmək bacarığını isə dünyada 11-ci yerə layiq görən Davos Forumunun qiymətləndirməsinə toxunmaq istəyirəm. Beləliklə, yeni hökumət əsas diqqətini artan əhalidən ibarət olan böyük çağırış üzərinə yönəldəcək. Buna görə də bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. Müstəqillik illərində əhalimizin sayı 7 milyondan 10 milyona qədər artdı. Beləliklə, əhaliyə əlavə infrastruktur, əlavə ərzaq təminatı tələb olunur. Bizim əhalimiz hər il 100 mindən çox artır. Bu isə o deməkdir ki, bizə ən azından ildə 100 min iş yeri lazımdır. Bu, asan deyil. Buna görə də hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə - 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq. Həmçinin bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız var. Bu gün bu borc çox aşağıdır, ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz onu ümumi daxili məhsulun 10 faizinə qədər endirməkdir. Əlbəttə ki, inflyasiyanın keçən il olduğu kimi 2,5 faiz səviyyəsində, aşağı səviyyədə saxlanılması məsələsi üzərində də işləyəcəyik. İnsanların gəliri həmişə inflyasiyanı üstələməlidir, habelə iş yerlərinin yaradılması da demoqrafik artımdan daha çox olmalıdır.

**Moderator:** Mən oxumuşam ki, indi Mərkəzi Asiya əhalisinin üçdəbir hissəsinin yaşı 15-dən aşağıdır. Yəni, əhalinin üçdəbir hissəsinin 15 yaşı tamam olmayıb. Dünyanın digər hər bir qitəsində gənclərə nəzər salsaq, biz onları küçələrdə görmüş olarıq, onlar öz səslərinin daha çox eşidilməsini tələb edirlər, onlar daha çox səsə malik olduqlarına öyrəşiblər. Siz də indi qeyd etdiniz ki, ölkənizdə gənclərin sayı çoxdur. Bəs, onlar küçəyə çıxsa və daha çox səs tələb etsə, Siz onlara nə deyərdiniz?

**Prezident İlham Əliyev:** Biz onların nə istədiklərini dinləyərdik. Lakin fakt ondan ibarətdir ki, Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, gənclər startap biznesindədir, gənclər hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edib. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük. Səmimi danışsaq, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir. Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şuarlardan istifadə etmiş, lakin sonra vəd etdiklərini yerinə yetirə bilməmişdir. Əslində, onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə onu müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altında olur. İnsanlar onu seçir, lakin bir ildən sonra o, ona göstərilən etimadı itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilmişdir. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır.

**Moderator:** Təşəkkür edirəm, Prezident Əliyev. Siz necə düşünürsünüz, Azərbaycandakı gənclər bu baxışı, regional təşkilatın bir hissəsi olmaq və həmin regional təşkilata suverenliyi həvalə etmək istəyini bölüşürlərmi? Azərbaycanda bu ideya yerli səviyyədə dəstəklənirmi?

**Prezident İlham Əliyev:** Xeyr, mən belə düşünmürəm. Düşünürəm ki, Azərbaycanın, o cümlədən gənc nəslin əsas ideyası və ideologiyası suverenlik, müstəqillik və öz ehtiyatlarımıza güvənməkdir. Prezident olaraq mənim hədəflərimdən biri Azərbaycanı özü-özünü təmin edən, heç kimdən asılı olmayan ölkəyə çevirmək idi. Başqa sözlə, iqtisadi müstəqillik əsas prioritet idi, çünki bu, siyasi müstəqillik üçün bünövrədir. Sözsüz ki, müxtəlif ölkələrin müxtəlif gündəmləri var. Müxtəlif ölkələrin iqtisadiyyatları digərlərininkindən daha həssasdır. Azərbaycana gəldikdə, bir daha qeyd edirəm ki, bizim coğrafi mövqeyimiz çox əlverişlidir. Bundan əlavə, biz müasir infrastrukturun yaradılmasına çoxlu investisiya yatırmışıq. İkincisi, qeyd etdiyiniz kimi, bizim nəsil çox gəncdir. Bizim əlavə və çox kreativ əmək ehtiyatlarımız var. Əlbəttə ki, biz təbii ehtiyatlarla - neft və qazla zənginik, bu da bizim üçün enerji təhlükəsizliyi yaradır. Ona görə də bizim qonşu ölkələr və çox sayda tərəfdaşlarımızla münasibətlərimiz qarşılıqlı maraqlara əsaslanır. Bundan əlavə, biz bu və ya digər beynəlxalq qurumda təmsilçiliyimizlə bağlı hər bir məsələyə praqmatik yanaşırıq. Bu, bizə nə verəcək? Əgər, bu, bizə daha çox iqtisadi stimul, biznes üçün daha çox imkanlar, daha çox sabitlik və daha çox təhlükəsizlik verəcəksə, əlbəttə ki, biz bunu nəzərə alırıq. Biz bir sıra beynəlxalq institutların üzvüyük. Onlardan biri Qoşulmama Hərəkatıdır.

**Moderator:** Sizin region üçün ən parlaq ümidiniz və ən pis kabusunuz nədir? Prezident Əliyev, buyurun.

**Prezident İlham Əliyev:** Mən düşünürəm ki, xüsusən regional vəziyyəti və yeni yaranmaqda olan münaqişə zonalarını nəzərə alaraq hazırda ən vacib olan məsələ regional sabitlikdir. Ölkədə bizim daxili risklərimiz yoxdur, istər siyasi risklər olsun, istər iqtisadi. Ölkə sabitdir, inkişaf davamlıdır. Bizim həyata keçirilməkdə olan və xalqımız üçün böyük imkanlar yaradan çox geniş islahatlar gündəliyimiz var. Ən böyük narahatlıq və əsas potensial kabus sərhədlərimizin xaricində gərginliyin artması olardı. Bunun üçün biz məsuliyyət daşımırıq. Təəssüf ki, biz bu prosesə tam olaraq təsir edə bilmərik. Məsuliyyəti bu kövrək sabitliyin daha da sarsılmaması üçün öz aralarında müəyyən məsələlərlə bağlı razılığa gəlməli olan super qüvvələr, super güclər daşıyacaq.

**Moderator:** Paneldə regionu yaxşı tanımayanlar üçün. Baş qaldırmasından daha çox narahat olduğunuz gərginliklər hansılardır?

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz bu gərginlikləri sərhədlərimizin yaxınlığında görürük. Biz Əfqanıstanda gərginlikləri görürük, biz orada həll edilməmiş vəziyyəti görürük. Biz özümüz Ermənistan tərəfindən işğala məruz qalmışıq və bu, daimi təhdid mənbəyidir. Ərazilərimizin demək olar ki, 20 faizi beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə zidd olaraq Ermənistanın işğalı altındadır. Biz ABŞ-İran münasibətlərində gərginliyin kəskinləşməsinin şahidi oluruq. Regionda artıq baş qaldırmaqda olan bir çox qaynar nöqtələr potensial təhdidlərdir. Ona görə də biz sərhədlərimizin xaricində təhlükəsizliyin və müəyyənliyin olmasında çox maraqlıyıq. Çünki hətta Azərbaycandan kənarda olan iqtisadi çətinliklər bizim iqtisadi və sosial vəziyyətimizə təsir edə bilər. Buna görə də düşünürəm ki, regionda sabitliklə bağlı vəziyyət bizi narahat edən əsas məsələdir və belə deyə bilərəmsə, regionda qeyri-sabitlik əsas kabusdur.

**Moderator:** Təşəkkür edirəm, cənab Prezident.

X X X

Panel iclasında Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa, "Astana" Beynəlxalq Maliyyə Mərkəzinin rəhbəri Kayrat Kelimbetov, "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostin, BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya iştirak ediblər.

# OPEC-in baş katibi: “Biz bunu heç vaxt unutmayacağıq”

*Davosda Prezident İlham Əliyev ilə OPEC-in baş katibi Məhəmməd Barkindonun görüşü olub*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin beş il bundan əvvəl Dünya İqtisadi Forumunda çıxışını xatırladan **Məhəmməd Barkindo dedi:**

-Cənab Prezident, xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü.

**Prezident İlham Əliyev:** Bəli, neftin qiyməti 30 dollar ətrafında idi.

**Məhəmməd Barkindo:** Biz ən pis vəziyyətin şahidi idik. Cənab Prezident, Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2016-cı il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq.

**Prezident İlham Əliyev:** Tamamilə doğrudur.

**Məhəmməd Barkindo:** Tarixdə ilk dəfə idi bu, baş verirdi. Sizin rəhbərliyiniz, Sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab Prezident. Bu, bizim üçün çox önəmlidir və Sizin də qeyd etdiyiniz kimi, ötən beş ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalmışdır.

**Prezident İlham Əliyev:** Xoş sözlərinizə görə təşəkkür edirəm. Bunu xatırladığınız üçün sizə minnətdaram. Həmin gün burada - Davosda mənə bu məsələ ilə bağlı nə etmək lazım olduğu barədə sual verildi və mən bu təklifi irəli sürdüm. Bu təklifi ciddi nəzərə aldığına görə OPEC-ə minnətdaram və biz həqiqətən çox nadir tərəfdaşlıq formatını yaratdıq. Hesab edirəm ki, bu formata malik olan, lakin təkcə format yox, eyni zamanda, qərarları səmərəli icra edən başqa belə bir beynəlxalq təşkilat yoxdur. Bəzən hətta bir təşkilat daxilində razılığa gəlmək mümkün olmur. Lakin OPEC-ə üzv olan və üzv olmayan ölkələr, böyük və kiçik neft istehsalçıları birləşdilər. Çünki bu, bizim ümumi məqsədimiz idi. Lakin əlbəttə ki, sizin rəhbərliyiniz olmasaydı, bizim səylərimiz nəticəsiz qalardı, çünki siz təşkilatın rəhbəri olaraq nəinki bütün prosesləri əlaqələndirdiniz, həm də prosesə rəhbərlik etdiniz. Düşünürəm və əminəm ki, uğurun səbəblərindən biri də bütün ölkələrin sizə böyük etimad göstərməsi idi. Bu, çox mühüm amil idi. Beləliklə, bizdə bütün mühüm elementlərin birləşməsi var idi. Təşkilat tərəfindən güclü rəhbərlik, həmçinin təşkilata üzv dövlətlərin və üzv olmayan dövlətlərin arasında çox ciddi əməkdaşlıq var idi. Mən bilirəm, hətta bəzi üzv ölkələr arasında hasilatın müəyyən dərəcədə azalmasına nail olmaq asan deyildi. Əlbəttə ki, çox səmərəli monitorinq prosesi, həmçinin etimad məsələsi var idi. Mən düşünürəm ki, bu prosesin bütün üzvləri hazırda sözlərinə əməl etməyə çalışırlar. Çünki etimadı qorumaq lazımdır. Həmçinin mən OPEC+ formatında görüşlərin birinin Bakıda keçirilməsi ilə bağlı təşəbbüsə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən sizi dəvət etdim və siz bu dəvəti qəbul etdiniz. Biz əməkdaşlığımızın gücləndirilməsini səbirsizliklə gözləyirik. Azərbaycan artıq OPEC üzvü kimi özünü göstərir. Əminəm ki, bu, belə də davam edəcək.

***“Cənab Prezident, xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz”***



# Azərbaycan Dünya Birliyi üçün vacib və etibarlı tərəfdaşdır

## *Prezident İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib*










***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı məsələləri müzakirə olundu, neft-qaz sektorunda əməkdaşlıq imkanlarının araşdırılması, həmçinin regionda və dünyada mövcud geosiyasi vəziyyət haqqında fikir mübadiləsi aparıldı. Söhbət zamanı bu ilin iyun ayında Tallində keçiriləcək Üç Dəniz Təşəbbüsündə Azərbaycanın da iştirak etməsinin əhəmiyyəti vurğulandı, Vışeqrad Qrupu və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olundu.***

Bu gün Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "SUEZ Group"un yeni baş icraçı direktoru Bertran Kamusla görüşüb. Görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Bertran Kamus rəhbərlik etdiyi şirkətin hazırda Azərbaycanda həyata keçirdiyi layihələr, bu layihələrin gedişi, həmçinin perspektiv proqramlar barədə məlumat verdi.

Rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə danışan baş icraçı direktor "SUEZ Group"un kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı istiqamətində, habelə irriqasiya və meliorasiya sahəsində gələcək fəaliyyət proqramlarını Prezident İlham Əliyevə təqdim etdi.

Görüşdən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bildirdi ki, "SUEZ" şirkətinin Azərbaycanın aidiyyəti qurumları ilə fəaliyyəti barədə məlumatlıdır və əldə edilən nəticələr də qənaətbəxşdir. Kimya məhsullarının istehsalı, məişət tullantılarının yığılması və emalı, habelə meliorasiya sahəsində qabaqcıl texnologiyaların tətbiqi istiqamətində "SUEZ" ilə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşüb. Görüşdə Azərbaycanla Monqolustan arasında əlaqələrin daha da dərinləşdirilməsi barədə fikir mübadiləsi aparıldı. Kənd təsərrüfatı sahəsində, xüsusilə heyvandarlıq sektorunda geniş əməkdaşlıq imkanlarının olduğu bildirildi, mis və qızıl mədənləri sənayesi sektorunda investisiya imkanları müzakirə edildi. Söhbət zamanı hazırda monqolustanlı tələbələrin Azərbaycanın universitetlərində təhsil aldıqları da qeyd olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb. Görüşdə TANAP layihəsinin artıq istifadəyə verildiyi, TAP-ın isə bu ilin axırınadək hazır olacağı qeyd edildi.

Söhbət zamanı "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənilməsinin növbəti mərhələsi üzrə yeni layihəyə dair müzakirələr aparıldı. Prezident İlham Əliyev bunun çox mühüm layihə olduğunu bildirdi.

Dövlətimizin başçısı bu ilin fevralında Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının nazirlər səviyyəsində görüşünün keçiriləcəyini qeyd etdi. Robert Dadli BP-nin öz fəaliyyətində ətraf mühitin qorunmasına daha böyük əhəmiyyət verəcəyini dedi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Gürcüstanın Baş Naziri Giorgi Qaxariya ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Ölkələrimizin iştirakı ilə qlobal və regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsinin önəmi vurğulandı. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətinə toxunuldu. Bildirildi ki, yanvarın 21-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Avrasiya üçün yeni baxış - dayanıqlı inkişaf üçün tərəfdaşlıq" mövzusunda keçirilən iclasda bu layihənin önəmi qeyd edilib və onun yeni əməkdaşlıq formatının yaradılmasında xüsusi rolu vurğulanıb. Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# Avropa standartlarına çatmaq üçün Statistika Komitəsinə Aİ-nin dəstəyi üzrə layihə yekunlaşıb

Yanvarın 22-də Bakıda Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq çərçivəsində icrası başa çatan “Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi” texniki yardım layihəsinin yekunlarına həsr olunan konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Sonra Şəhidlər xiyabanına gələn konfrans iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.



Konfransı Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov açıq elan etdikdən sonra Baş Nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxış ediblər.

Sonra tədbirdə Layihənin Qrup rəhbəri Rimantas Yuozas Vaicenaviçiusun “Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi layihəsi: qarşıya qoyulmuş məqsədlər və əldə olunmuş nailiyyətlər”, ICON İnstitutunun Statistika şöbəsinin rəhbəri Roland Delemontun “Layihənin konsorsiumu: nəticələrə hesablanmış əməkdaşlıq”, Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Qasım Əliyevin “Layihənin komponentləri: hədəflər və nəticələr” mövzularında təqdimatları nümayiş olunub.

Niderland Mərkəzi Statistika Bürosunun baş direktoru Tjark-Tsin-A-Tsoinin “Rəsmi statistikada istifadəçi tələblərinə cavab verən müasir strategiyalar”, Litva Statistika Departamentinin baş direktoru xanım Jurate Petrauskienenin “Avropa Statistika Sisteminin inkişafında statistik proseslərin standartlaşdırılması rolu”, Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarskinin “Rəsmi statistikanın inkişafında davamlı beynəlxalq əməkdaşlığın rolu” və BMT-nin Avropa İqtisadi Komissiyasının Statistika şöbəsinin regional məsləhətçisi Steven Valenin “Avropa statistikasının beynəlxalq statistika sisteminə töhfəsi” mövzularında məruzələri dinlənilib.

Qeyd olunub ki, “Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi” texniki yardım layihəsi Dövlət Statistika Komitəsinin Avropa İttifaqı ilə birgə həyata keçirdiyi iki Tvinniq layihəsindən sonra 3-cü layihədir. Ölkəmizin statistika sisteminin təkmilləşdirilməsində mühüm əhəmiyyətə malik olmuş bu layihə çərçivəsində tərəfdaş ölkə mütəxəssislərinin Dövlət Statistika Komitəsinə ekspert missiyaları təşkil edilib, Dövlət Statistika Komitəsinin əməkdaşları Niderland, Litva, Bolqarıstan, Portuqaliya və Rumıniyaya ezam olunaraq statistik təsnifatların tətbiqi, istehsalçı qiymət indeksləri, statistik keyfiyyətin idarə edilməsi sistemi və sair sahələrdə beynəlxalq təcrübəni öyrəniblər.

# OPEC-in baş katibi: “Biz Azərbaycan Prezidenti İlham Əliyevin çağırışı nəticəsində işləməyə başladıq”



Biz Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən rəhbərliyi, çağırışı nəticəsində işləməyə başladıq. AZƏRTAC xəbər verir ki, bu sözləri Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo Davosda Prezident İlham Əliyevlə görüşdə deyib.

M.Barkindo bildirib: “Cənab Prezident xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməyib. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü.

Biz ən pis vəziyyətin şahidi idik. Cənab Prezident, Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2017-ci il dekabrın 10-da, daha dəqiq, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq. Tarixdə ilk dəfə idi bu, baş verirdi. Sizin rəhbərliyiniz, Sizin baxışınız sayəsində biz bunu etdik. Biz bunu heç vaxt unutmayacağıq, cənab Prezident. Bu, bizim üçün çox önəmlidir və Sizin də qeyd etdiyiniz kimi, ötən beş ildə biz Azərbaycanla çox sıx işləmişik və Azərbaycan qəbul edilmiş bütün qərarlara sadiq qalıb”.



# Əli Əhmədov: “Azərbaycan islahatlara açıq ölkədir”

“Azərbaycan islahatlara, yeniliklərə açıq ölkədir”. SİA-nın verdiyi məlumata görə, bunu “Avropa standartlarına çatmaq üçün Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə Aİ-nin dəstəyi” texniki yardım layihəsinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Baş nazirinin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov deyib.

Onun sözlərinə görə, bu gün Azərbaycan dünyanın ən sürətlə, ən geniş islahatlar həyata keçirən ölkələr sırasındadır. Ə.Əhmədov əlavə edib ki, nisbətən gənc dövlət olan Azərbaycan müstəqilliyini bərpa etdiyi 29 il ərzində ciddi nailiyyətlər əldə edib: “Lakin Azərbaycan müstəqilliyinin əldə etdiyi ilk illərdə onun həyatı heç də problemsiz keçməyib. Azərbaycan ərazilərinin 20 faizinin işğal olunması nəticəsində problemlərinin həlli, sosial həyatın təmin edilməsi, iqtisadiyyatın inkişafı üçün üçün böyük səylər göstərilməli olub”.

Baş Nazirin müavini bildirib ki, Azərbaycan düzgün strategiya seçməsi nəticəsində böyük inkişaf mərhələsi keçib. Son 15-16 ildə Azərbaycanın iqtisadiyyatı 3,4 dəfə, ölkənin büdcəsinin gəlirləri təxminən 20 dəfəyədək, əhalinin nominal əməkhaqqı 10 dəfəyədək artıb. Azərbaycan iqtisadiyyatının kreditləşdirilməsi üçün qoyulan vəsaitlər 23 dəfə artıb:

“Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan qısa müddətdə böyük inkişaf yolu keçib. Bu illər ərzində yalnız Bakı deyil, Azərbaycanın bütün regionları simasını dəyişib, müasirləşib. Beləliklə, Azərbaycan müasir dövlət qurulması istiqamətində böyük işlər görüb. Lakin inkişafın davamlılığının təmin edilməsinin çox mühüm amillərindən biri daim yeniləşmək və islahatların həyata keçirilməsinə hazır olmaqdır”.

# Ukrayna radiosunda Ermənistanın işğalçılıq siyasəti pislənilib

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması regionda iqtisadi inkişafa əngəl olur. AZƏRTAC xəbər verir ki, bu fikri Ukraynanın 106.1 FM radiosuna müsahibəsində Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev söyləyib.

Səfir vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ədalətli həll edilsə, regionda iqtisadi göstəricilər mövcud vəziyyətdən 2-3 dəfə yaxşı olar. 20 Yanvar faciəsinə toxunan səfir vurğulayıb ki, ötən sərin 90-cı illərinin sonunda Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, Dağlıq Qarabağ bölgəsində separatçı siyasəti Azərbaycan xalqının kütləvi etirazlarına səbəb olub. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusu dinc sakinlərə qarşı amansız cinayət törədib. Əslində bu, Mixail Qorbaçovun başçılıq etdiyi səriştəsiz sovet rəhbərliyinin Azərbaycan xalqının iradəsini qırmağa qərar verən xain bir hərəkəti idi. Bununla Azərbaycan xalqının azadlıq və ədalət əzmini sındırmaq istəyirdilər. Lakin əksinə, bu hadisə SSRİ-nin süqutunu tezləşdirdi. A.Xudiyev müsahibəsində, həmçinin Azərbaycan iş adamlarının Ukraynaya investisiya yatırımından da söhbət açıb.



# MSK bülletenlərin çapına yaxın günlərdə başlayacaq

Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərlə əlaqədar bülletenlərin çapına yaxın günlərdə başlayacaq. Bu barədə jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib.

MSK sədri deyib ki, namizədliyi qeydə alınan şəxslərin bir hissəsi bülletenlər çap edilənə qədər öz namizədliklərini geri götürürlər: “Biz istərdik ki, namizədlər mübarizəni dayandırmasınlar. Amma bu, bütün dünya təcrübəsində olan, xüsusilə də postsovet, Şərqi Avropa ölkələrində tez-tez baş verən haldır. Finiş xəttinə yaxınlaşanda, adların bülletenlərə daxilolma mərhələsində namizədlərin müəyyən hissəsi öz namizədliklərini geri götürür. Hazırda biz bu məsələ ilə məşğuluq”.

# Azərbaycan MDB-də müəllif turları üçün ən populyar üçlüyə daxildir



Azərbaycanda Bakı, Qobustan, Şəki və Qəbələ MDB ölkələrində müəllif turları üçün ən populyar istiqamətlər siyahısına daxil edilib. Belə ki, Rusiyanın “TurStat” turizm portalı rusiyalı turistlər üçün MDB-də müəllif turlarının ən populyar istiqamətlərinin siyahısını təqdim edib. Bu siyahıya, Azərbaycandan Bakı, Qobustan, Şəki və Qəbələ ilə yanaşı, həmçinin Qazaxıstandan Almatı şəhəri və Almatı vilayəti, Burabay və Aktau, Belarusdan Minsk şəhəri, Minsk vilayəti və Vitebsk, Özbəkistandan Buxara və Səmərqənd və s. daxil edilib.

“Turstat”ın məlumatına görə, müəllif turları turizmin ən populyar növlərindən birinə çevrilir. Travel-bloggerlər tərəfindən təqdim edilən müəllif turları və ekskursiyalar daha çox populyarlaşır. Müəllif turları dedikdə, travel-ekspertlə 5-15 nəfərlik kiçik qruplarda səyahət və turlar nəzərdə tutulur.

Müəllif qastronomik turlarına, ekskursiya turlarına, trekinq-turlara və ekspedisiyalara, cip-turlara, həmçinin fototurlara daha çox tələbat var. Bir həftəlik müəllif turuna turistlər iki adama 1000-1500 dollar xərcləməyə hazırdırlar. Reytinq müəllif turları və istirahət təklifləri bazarının analizinin nəticələri əsasında tərtib edilib.

# “Azərbaycan və Avropa İttifaqı təhlükəsizlik, nəqliyyat və enerji sahələrində yaxından əməkdaşlıq edir”

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Belçikanın nüfuzlu “Euroactive” portalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, müsahibədə Prezidentin köməkçisi Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin onun xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil etdiyini söyləyib. “Biz Avropa İttifaqı ilə bir çox sahələrdə əməkdaşlıq edirik. Azərbaycan ticarət sahəsində Avropa İttifaqının mühüm tərəfdaşlarından biridir.***



Həmçinin Azərbaycandakı əsas investorlar da əsas etibarilə, Avropa İttifaqı ölkələridir. Azərbaycan və Avropa İttifaqı təhlükəsizlik, nəqliyyat və enerji sahələrində yaxından əməkdaşlıq edir. Xüsusən enerji sahəsində Azərbaycan və Avropa İttifaqı strateji tərəfdaşlıq münasibətlərinə malikdir”, - deyə Hikmət Hacıyev qeyd edib.

Azərbaycanın Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi üzrə danışıqlar prosesini başlatdığını qeyd edən Prezident Administrasiyasının rəsmisi bildirib ki, sənəd üzrə danışıqlar Avropa İttifaqı və Azərbaycan arasında hələ də davam edir. Müəyyən fundamental məsələlər var ki, tərəflər onlarla bağlı fərqli baxışlara malikdir. Bununla belə, hər iki tərəf konstruktiv yanaşma göstərməklə, mövqeləri yaxınlaşdırmaq istiqamətində birgə iş aparır. Saziş layihəsinin demək olar ki, 90 faizi razılaşdırılıb. Lakin enerji və ticarətlə bağlı bir sıra məsələlər var ki, biz Avropa İttifaqının daha çevik yanaşma göstərməsini gözləyirik.

Şərq və Qərb arasında bağlantıların yaxşılaşdırılmasında Azərbaycanın rolu ilə bağlı suala cavabında Hikmət Hacıyev qeyd edib ki, “İpək Yolu” konsepsiyası Azərbaycanın bu məsələyə baxışı ilə üst-üstə düşür. Çünki Azərbaycan tarixən qədim İpək Yolunun üstündə yerləşib. Bu səbəbdən bu yol və Xəzər dənizi boyunca biz öz Mərkəzi Asiyadan olan tərəfdaşlarımızla birgə müxtəlif bağlantı mexanizmləri təsis edirik. Bu, yalnız nəqliyyata aid deyil. Bu, həm də informasiya və kommunikasiya texnologiyalarına aiddir. Azərbaycan Xəzər dənizi boyunca Mərkəzi Asiya, o cümlədən Çin və digər tərəfdaşları ilə birgə yeni fiberoptik xətt inşa edir. Biz, həmçinin İpək Yolunun dəniz və hava komponentləri üzərində işləyirik. Qısası, işlər yaxşı gedir. Biz Çin və Avropa İttifaqı arasındakı böyük ticarət dövriyyəsi potensialının fərqindəyik. Xüsusən də artıq istifadə verilmiş və tam işlək vəziyyətdə olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti vasitəsilə Azərbaycan orta dəhliz qismində bu məsələdə öz rolunu oynaya bilər. Biz Avropa İttifaqından olan tərəfdaşlarımızla birgə çox işlər görə bilərik. Azərbaycan İran və Rusiya ilə birlikdə Şimal-Cənub istiqamətində də bağlantılar xətti yaratmağa çalışır. Azərbaycanın dəmir yolu sistemi Rusiyanın dəmir yolu sisteminə yaxşı inteqrə edilib və əlaqələndirilib. Hazırda biz Hindistan okeanı hövzəsi ölkələrindən Avropanın şimalına malların qısa müddət ərzində çatdırıla bilməsi üçün iranlı tərəfdaşlarımızla birgə işləyirik. Bunlar bizim tərəfdaşlarımızla birgə üzərində çalışdığımız imkanlardır. Düşünürük ki, artıq bu istiqamətdə yaxşı tərəqqi əldə olunub.

Prezidentin köməkçisi Azərbaycan-NATO əlaqələrindən də danışıb. O qeyd edib ki, ötən il biz Azərbaycanın 1994-cü ildə qoşulduğu “Sülh naminə tərəfdaşlıq” Proqramının 25-ci ildönümünü qeyd etdik. O vaxtdan bəri NATO ilə əməkdaşlıq Azərbaycanda təhlükəsizlik və müdafiə islahatları sahəsində mühüm rol oynayıb. Müxtəlif NATO proqramları çərçivəsində verilən təhsil, təlim və məşğələlər Azərbaycanın öz müdafiə qabiliyyətini artırması və bu sahədə aparılan islahatlar prosesində mühüm vasitə olmuşdur. Hazırda Azərbaycan NATO tərəfindən etibarlı və öz öhdəliklərinə sadiq bir tərəfdaş kimi qəbul edilir. Bu gün Azərbaycan əsgərləri NATO müttəfiq və tərəfdaş ölkələri ilə çiyin-çiyinə Əfqanıstanda terrorizmlə mübarizə aparır və bu ölkəyə sülh və əmin-amanlıq gətirməyə çalışır. Azərbaycan, həmçinin NATO müttəfiq və tərəfdaş ölkələri üçün həyati əhəmiyyətli yüklərin nəqliyyatında tranzit və logistik qovşaq kimi də mühüm rol oynayır. Biz inanırıq ki, siyasi məsləhətləşmələr və dialoqun daha da inkişaf etdirilməsi üçün potensial var.

Avropa İttifaqının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinə münasibət bildirən Hikmət Hacıyev deyib ki, Aİ-nin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı ilə bağlı prinsipial və qəti mövqeyini müsbət qiymətləndiririk. Bu mövqe Avropa İttifaqı və Azərbaycan arasında imzalanmış “Tərəfdaşlıq prioritetləri” sənədində bir daha öz təsdiqini tapıb. Biz bu siyasətin xüsusilə də Avropa İttifaqının Vahid Xarici və Təhlükəsizlik Siyasəti sənədinin yerinə yetirilməsinə dair Avropa Parlamentinin qətnaməsində davam etdirildiyini görürük. Bu, Avropa İttifaqının bütün Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyünü dəstəkləməsi ilə bağlı öhdəlik xarakterli bir sənəddir. Bizim üçün bu, olduqca vacibdir və biz bu mövqeni təqdir edirik. Həmçinin, düşünürük ki, Helsinki Yekun Aktı və beynəlxalq hüquqdan irəli gələn bu fundamental prinsiplər heç bir ayrı-seçkiliyə yol verməden, bütün Şərq Tərəfdaşlığı ölkələri də daxil olmaqla bütün münaqişələrə münasibətdə tətbiq edilməlidir. Biz bu siyasətin davam etdirilməsini və ATƏT, BMT və bəzi digər platformalarda Aİnin mövqeyi kimi əks etdirilməsini istərdik. Çünki ərazi bütövlüyü hər bir ölkə üçün vacib şərtdir.

“Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hər hansı perspektiv görürsünüzmü?” sualına cavabında Prezident Administrasiyasının rəsmisi deyib: “Azərbaycan Prezidentinin də bildirdiyi kimi, təəssüf ki, ötən il münaqişənin həlli baxımından itirilmiş il olub. Biz bu münaqişənin həlli üçün hər hansı bir xüsusi hərəkət görə bilmirik. Əksinə, biz Ermənistan tərəfindən qeyri-məhsuldar, destruktiv siyasətin şahidi olduq. Danışıqlar prosesinin artıq təsis olunmuş formatının mövcudluğuna baxmayaraq, erməni tərəfi bu formatı dəyişməyə cəhd etdi. Ermənistan və Azərbaycan bu münaqişənin tərəfləridir və ATƏT-in Minsk qrupunun həmsədrləri, vasitəçilərdir. Daha sonra erməni tərəfi çox yüksək səviyyədə “yeni ərazilər, yeni müharibələr” və “bir santimetr belə ərazinin qaytarılmayacağı” kimi fikirlər səsləndirdi. Nəhayət, Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində “Dağlıq Qarabağ Ermənistandır” dedi. Bu, suveren bir dövlətin ərazisinin digər bir ölkənin rəhbəri səviyyəsində açıq şəkildə ilhaq edilməsi deməkdir. Bu, tamamilə qəbuledilməzdir. Bu, nəinki danışıqlara zərbə vurur, bütövlükdə danışıqlar prosesini dağıdır. Biz həmsədr ölkələrə, beynəlxalq ictimaiyyətə ismarıc göndərdik ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi”.

# YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov seçicilərlə görüşüb

***Yeni Azərbaycan Partiyası parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirir. Kampaniya çərçivəsində YAP tərəfindən irəli sürülmüş deputatlığa namizədlər Naxçıvan Muxtar Respublikası ərazisində də seçicilərlə fəal görüşlər keçirirlər.***



Əvvəlcə Yeni Azərbaycan Partiyasının muxtar respublika üzrə irəli sürdüyü deputatlığa namizədlər müasir müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər, önünə gül dəstələri qoyublar. Yanvarın 21-də isə 5 saylı Şahbuz-Babək seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Dünyamalı oğlu Novruzovun Şahbuz rayonunun Ayrınc, Kükü, Qızıl Qışlaq, Güney Qışlaq, Ağbulaq və Gömür kəndlərində seçicilərlə görüşü olub.





YAP tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzov Azərbaycanın çox mühüm siyasi hadisə ərəfəsində olduğunu - fevralın 9-da ölkəmizdə parlament seçkilərinin keçiriləcəyini diqqətə çatdırıb. Yeni Azərbaycan Partiyasının seçkilərə qətiyyətli qələbə əzmi və böyük ruh yüksəkliyi ilə qatıldığını söyləyən S.Novruzov “Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin, şərəfli inkişaf yolu keçmiş YAP qatıldığı bütün seçkilərdə seçicilərin böyük etimadı əsasında inamlı qələbə qazanıb. Təsadüfi deyil ki, Azərbaycanda, hətta Cənubi Qafqaz regionunda ən güclü və nüfuzlu siyasi təşkilat olan Yeni Azərbaycan Partiyası ümumxalq partiyası kimi tanınır”,-deyə vurğulayıb.

Ölkəmizdə Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi və siyasi iradəsi əsasında bütün sahələri əhatə edən genişmiqyaslı, sistemli və kompleks xarakterli islahatların həyata keçirildiyini deyən Siyavuş Novruzov respublikamızın möhtəşəm nailiyyətlər qazanaraq yeni zirvələr fəth etdiyini, xalq-iqtidar birliyinin sarsılmaz olduğunu bildirib. O, “Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət iqtisadi inkişafın davamlı xarakter daşımasını, əhalinin rifahının daha da yaxşılaşmasını, ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsini, nüfuzunun artmasını təmin edib”,- deyib.

Naxçıvan Muxtar Respublikasının ötən müddət ərzində dinamik tərəqqi yolu keçdiyini deyən S.Novruzov Prezident İlham Əliyevin muxtar respublikanın inkişafına daim böyük diqqət göstərdiyini vurğulayıb: “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən islahat xarakterli tədbirlərin uğurlu nəticələri göz önündədir. Muxtar respublikada yeni istehsal sahələri yaradılır, əhalinin məşğulluq səviyyəsi daim artır, sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşdırılmasına, əhalinin rifah səviyyəsinin daha da yüksəldilməsinə xidmət edən çox əhəmiyyətli işlər görülür. Muxtar respublika ərazisində, o cümlədən Şahbuz rayonunda və onun bütün kəndlərində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, təhsil müəssisələri, sağlamlıq ocaqları müasir standartlar əsasında tikilib və ya əsaslı təmir olunub, yüksək infrastruktur quruculuğu həyata keçirilib, fasiləsiz elektrik, qaz və su təminatı yaradılıb. Bütün bunlar Naxçıvan Muxtar Respublikasının, o cümlədən Şahbuz rayonunun sakinlərinin layiqli həyat şəraitinin təmin olunmasını şərtləndirib. Bütövlükdə, Naxçıvan yeni intibah və inkişaf yolunda əmin addımlarla irəliləyir, gündən-günə daha da gözəlləşir”,- deyən Siyavuş Novruzov muxtar respublika sakinlərini parlament seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər öz fəaliyyətində xalqın mənafeyini və dövlətin maraqlarını rəhbər tutan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini ifadə ediblər.

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

## Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verib

### Əliabbas Salahzadənin Sabunçu qəsəbə sakinləri ilə növbəti görüşü keçirilib





Dünən Yeni Azərbaycan Partiyası tərəfindən 27 saylı Sabunçu ikinci Seçki Dairəsindən namizədliyi irəli sürülən Əliabbas Salahzadənin təşviqatı ilə əlaqədar Sabunçu seçiciləri ilə görüşü keçirilib.

Görüşdə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərək YAP tərəfindən Milli Məclisə namizədliyi irəli sürülən Əliabbas Salahzadənin həyatı və fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verib. M.Abasquliyeva çıxışı zamanı onu da qeyd edib ki, partiyanın rayon təşkilatı həmişə ölkədə keçirilən bütün seçkilərə ciddi şəkildə, qələbə əzmi ilə hazırlaşır: “Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatı partiyanın “Daha güclü Azərbaycan naminə!” şüarını rəhbər tutaraq, namizədlərin təbliğatını fəal şəkildə həyata keçirir. Bu baxımdan, Milli Məclisə növbəti seçkilərlə əlaqədar Sabunçuda Yeni Azərbaycan Partiyası namizədlərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir və bu seçkidə də mütləq səs çoxluğu ilə YAP namizədləri qələbə qazanacaqlar.

Deputatlığa namizəd Əliabbas Salahzadə görüşdə öz seçki platforması barədə seçicilərə geniş məlumat verib. Əliabbas Salahzadə seçicilərin mütləq əksəriyyətinin səsini qazanacağına inandığını və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını və seçicilərin etimadını doğrultmağa çalışacağını söyləyib.

Görüşdə çıxış edən YAP Sabunçu rayon təşkilatının sədr müavinləri Məhərrəm Mehrəliyev və Bəxtiyar Qasımov seçiciləri 9 fevralda keçiriləcək parlament seçkiləri zamanı hamılıqla YAP-nın namizədlərinə səs verməyə çağırıblar.

### Ağdaşlıların seçimi Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanovdur





Təbliğat kampaniyası çərçivəsində seçicilərlə görüşləri uğurla davam edən Cavid Osmanovun növbəti görüşləri rayonun Şəkili və Qoşaqovaq kəndlərində keçirilib. Hər iki görüşü deputatlığa namizəd Cavid Osmanov açaraq, 9 fevralda keçiriləcək Milli Məclisə seçkilərdə namizədliyinin Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülməsi, eləcə də, həyat və fəaliyyəti haqqında seçicilərə geniş məlumat verib. Ölkədə hayata keçirilən uğurlu daxili və xarici siyasətə diqqət çəkən Cavid Osmanov, son 16 il ərzində, Azərbaycanda görülən işlərdən və əldə olunan uğurlardan danışaraq bildirib ki, dünya birliyinin layiqli üzvü olan müstəqil Azərbaycan bu gün Ümummilli Liderimiz Heydər Əliyevin müdrik strategiyasını uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin düşünülmüş və zamanın çağırışlarına uyğun məqsədyönlü siyasəti nəticəsində, iqtisadi keçid dövrünü başa vuraraq və modern inkişaf yolunda inamla irəliləyir. Cavid Osmanov Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı İlham Əliyevin Ağdaş rayonuna olan xüsusi diqqət və qayğısından danışıb. Rayonda kənd yollarının yenidən qurulduğunu, məhz bu işlər nəticəsində, Şəkili və Qoşaqovaq kəndlərinə də yeni asfalt yolun çəkildiyini vurğulayıb. Cavid Osmanov bütün bu işlərin ölkə başçısı İlham Əliyevin və Onunla çiyin-çiyinə birgə addımlayan Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın həyata keçirdikləri yorulmaz fəaliyyətin bəhrəsi olduğunu bildirib. Ağdaşlıların hər zaman dövlətə və dövlətçiliyə sadiq insanlar olduğunu diqqətə çatdıran Cavid Osmanov göstərdikləri yekdil dəstəyə görə onlara öz minnətdarlığını bildirib.

Görüşlərdə çıxış edən təbliğat qrupunun üzvlərindən Vaqif Hacıyev və Sevgili İbrahimova Cavid Osmanovun Milli Məclisdəki fəaliyyətinə nəzər salıblar və rayon üçün gördüyü işlərdən danışıblar. Onlar seçiciləri səsvermə günü düzgün seçim edərək, yekdil şəkildə Ağdaş üçün layiqli namizəd olan Cavid Osmanova səs verməyə çağırıblar.

Görüşlərdə seçicilər adından çıxış edən Şəkili kənd sakinləri Mirxalid Yunusov, Əlövsət İsmayılov, Ağasəf Məcidov, Qoşaqovaq kənd sakinləri Yusif Muradov, Təqrəddin Xəlilov, Zəkiyyə Abdullayeva və Mahir Məmmədov qeyd ediblər ki, onlar hər zaman dövlətə və dövlətçiliyə sadiqdirlər. Öz seçimlərini ilk gündən müəyyənləşdirdiklərini bildirən kənd sakinləri bəyan ediblər ki, onların seçimi Ağdaşı Milli Məclisdə layiqincə təmsil etmiş və yenidən namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən Cavid Osmanovdur. Onlar fevralın 9-da böyük coşquyla seçki məntəqələrinə gedərək, bu seçimlərini, rəsmi olaraq, təsdiqləyəcəklər.

### Mahir Abbaszadə Ümid qəsəbəsində seçicilərlə görüş keçirib






Dünən YAP-ın 121 saylı Laçın Seçki Dairəsindən millət vəkilliyinə namizədi Abbaszadə Mahir Tapdıq oğlu Qaradağ rayonu Ümid qəsəbəsində yaşayan laçınlı seçiciləri ilə görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov ölkəmizdə müşahidə olunan sürətli inkişaf prosesinin davamlılığı ilə bağlı fikirlərini bildirib. Bu inkişafın Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, YAP Sədri, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən kompleks və sistemli islahatlar nəticəsində əldə olunduğunu söyləyən İlqar İlyasov Azərbaycanın milli maraqlarının qorunmasına xidmət edən mükəmməl iqtisadi strategiyanın ölkəmizi yüksək inkişaf yoluna çıxardığını bildirib.

Tədbirdə çıxış edən YAP-ın parlament seçkilərindəki namizədi Mahir Abbaszadə bildirib ki, ölkəmizin inkişafına təkan verən uzunmüddətli islahatlar proqramı Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasına olan inam və etibarın daha da möhkəmlənməsinə yol açıb. Xüsusi olaraq, qeyd etmək istəyirəm ki, partiyamızın artan nüfuzunun başlıca səbəblərindən biri də, məhz güclü sosial dayaqlarının olmasıdır.

Görüşdə namizədin seçkiqabağı platforması və ölkədə aparılan islahatlar müzakirə edilib. M.Abbaszadə Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın məcburi köçkünlərin probemlərinin həllinə

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

## Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat-təşviqat kampaniyasına start verib

xüsusi həssaslıqla yanaşdığını vurğulayıb. O, qeyd edib ki, bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması ölkə rəhbərliyinin yeritdiyi sosial siyasətin əsas istiqamətlərindən biridir. Mahir Abbaszadə təmsil etdiyi Yeni Azərbaycan Partiyasınında öz fəaliyyətinin Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatların mahiyyətinə uyğun qurduğunu bildirib. Özünün V çağırış Milli Məclisdəki fəaliyyəti barədə hesabat verən hakim partiyanın namizədi, ötən dövr ərzində Laçın rayonunu Azərbaycan səviyyəsində, Azərbaycanı isə beynəlxalq arenada layiqincə təmsil etməyə çalışdığını qeyd edib. O, ötən dövrdə seçicilərinin müraciətlərini daim aidiyyəti qurumlar qarşısında qaldırdığını və onların müsbət həllinə çalışdığını bildirib. Tədbirdə çıxış edən rayon ziyalıları Murad Hüseynov, Əlövsət Məmmədov, İlham Qəhrəman, Venera Mirzəyeve, Abbasova Tünzalə, Qarabağ döyüşçüsü Azər Ağayev və başqaları fevralın 9-da seçki məntəqələrində ən layiqli namizədə - YAP-ın namizədi Mahir Abbaszadəyə səs verəcəklərini bildiriblər.

Daha sonra Mahir Abbaszadə Laçın rayonundan məcburi köçkün, 82 yaşlı tənha qadın Həsənova Zöhrə Cəlal qızının evində olub, onunla söhbət edib. Səmimi keçən görüş zamanı Zöhrə Həsənova M.Abbaszadəyə seçkidə qələbə qazanmağı arzu edib.

### YAP-ın namizədi Aydın Hüseynovun seçicilərlə görüşləri davam edir





Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 11 saylı Qaradağ Seçki Dairəsindən irəli sürülən partiyanın rayon təşkilatının sədri Aydın Hüseynovun seçicilərlə görüşləri davam edir. Dünən deputatlığa namizəd Aydın Hüseynov 20 Yanvar şəhidlərinin və əlillərinin ailələrində, o cümlədən, məhəllə və evlərdə seçicilərlə mütəmadi görüşlər keçirib. Azərbaycanın müstəqillik və azadlıq yolunda xüsusi xidmətləri ilə seçilən qəhrəmanların ibrətamiz ömür yolundan danışan A.Hüseynov onların hər birinin həyat yolunun gənc nəsillər üçün nümunə olduğunu bildirib.

Fevralın 9-da ölkəmizdə keçiriləcək parlament seçkilərinə toxunan Aydın Hüseynov YAP-ın seçki platforması barədə ətraflı məlumat verərək bildirib ki, xalqa xidmət nümunəsi ilə böyük nüfuz qazanan partiyamız Azərbaycanın daha da inkişafı, ölkədə sosial rifahın getdikcə yaxşılaşdırılması və digər bütün məsələlərin həlli üçün növbəti parlament seçkilərində də uğur qazanmaq, daha güclü Azərbaycan naminə çalışmaq niyyətindədir. Bu səbəbdən də, bütün seçicilərin seçkidə iştirak etməsi və respublikanın gələcəyinə səs verməsi partiyamızın platformasında, xüsusilə qeyd olunub.

YAP-ın seçkiqabağı platforması ilə tanış olan sakinlər növbəti seçkidə də arzu və istəklərini real formada ifadə edirəcəklərini və "Daha güclü Azərbaycan naminə!" səs verəcəklərini bildirdilər.

### Kamilə Əliyevanın seçicilərlə görüşü keçirilib





111 saylı Zaqatala-Balakən Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyevanın təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Yanvarın 22-də Kamilə xanım Əliyeva Zaqatala rayonunda bir neçə kənddə seçicilərlə görüşüb. Yeni Azərbaycan Partiyasının namizədi Kamilə Əliyeva təbliğat-təşviqat kampaniyası çərçivəsində günün birinci yarısında Zaqatala rayonunun Uzuntala, Balakən rayonunun İtitala kəndlərinin sakinləri ilə genişmiqyaslı görüş keçirib. Günün ikinci yarısı isə onun Zaqatala rayonunun III Tala sakinləri ilə fərdi görüşlər təşkil olunub. Görüşdə Kamilə Əliyeva, Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov, digər səlahiyyətli nümayəndələr iştirak etmişdir. Kamilə Əliyeva və Habil Qurbanov geniş məzmunlu çıxış etmişlər. Habil Qurbanov Kamilə xanımın bundan əvvəlki iki çağırış millət vəkili kimi gördüyü işlərdən və fəaliyyətindən bəhs edərək sakinləri seçkilərdə aktiv iştirak etməyə, layiqli namizədə səs verməyə səslədi. Namizəd Kamilə Əliyeva çıxışı zamanı deputat olduğu dönəmdə göstərdiyi fəaliyyətindən və aparılan dövlət siyasətindən söz açmışdır. Sonra görüş diskussiya şəraitində davam etdirilmişdir. Sakinlər tərəfindən səsləndirilən təklif və problemlər dinlənilərək qeydə alınmışdır.

Görüşlərdə yuxarıda sadalanan kəndlərin seçiciləri, ağsaqqallar, ağbirçəklər və gənclər də olmaqla, ümumilikdə, 200-ə yaxın insan iştirak etmişdir. Kamilə xanım bu görüşdə insanların, ümumilikdə və fərdi şəkildə etdiyi müraciətlərə diqqətlə qulaq asaraq, aidiyyatı üzrə baxılması üçün qeydlərini götürmüşdür.

Fərdi görüşlər zamanı seçicilər millət vəkilliyinə namizəd Kamilə xanım Əliyevaya qarşıdan gələn seçkilərdə və gələcək fəaliyyətində uğurlar arzuladılar.

Fevralın 9-da keçiriləcək parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən 111 saylı Zaqatala-Balakən Seçki Dairəsi üzrə deputatlığa namizəd Kamilə Əliyevanın Zaqatalanın Mazıx və Balakənin Hənifə kəndlərində seçicilərlə görüşləri keçirilib. Bundan əlavə, Kamilə Əliyevanın Zaqatala şəhər seçiciləri ilə də fərdi görüşləri olmuşdur.

Görüşlər zamanı deputatlığa namizəd Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, son 16 il ərzində, gördüyü işlər haqqında seçicilərə geniş məlumat vermiş, aparılan uğurlu və məqsədyönlü siyasətin nəticələrini seçicilərin nəzərinə çatdırmışdır. Son illərdə ölkəmizin iqtisadi qüdrətinin artması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, məhz Cənab Prezidentin apardığı islahatlar nəticəsində mümkünlüyü vurğulanmışdır.

Kamilə Əliyeva seçki platforması haqqında, eləcə də, 9 il ərzində gördüyü işlərin hesabatını seçicilərin diqqətinə çatdırmışdır. O, "Daha güclü Azərbaycan naminə" YAP-ın namizədinə səs verməyə seçiciləri dəvət etmişdir.

Sonda seçicilər çıxışları zamanı öz razılıqlarını bildirərək, Kamilə Əliyeva səs verəcəklərini bildirmişlər.

### Malik Həsənov seçicilərlə növbəti görüşlər keçirib



Milli Məclisə növbəti seçkilərlə əlaqədar Cəlilabadda Yeni Azərbaycan Partiyası namizədlərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Yeni Azərbaycan Partiyası Cəlilabad rayon təşkilatı partiyanın "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!" şüarını rəhbər tutaraq, namizədlərin təbliğatını fəal şəkildə həyata keçirir.

Dünən Yeni Azərbaycan Partiyası tərəfindən 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən deputatlığa namizəd Həsənov Malik Əvəz oğlunun rayonun böyük yaşayış məntəqələri olan Hamaraqışlaq, Xəlilabad, Qamışlıgöl və Seyidbazar kəndlərinin seçiciləri ilə təbliğat-təşviqat kampaniysı çərcivəsində görüşləri keçirilibdir.

*Ardı Səh. 10*

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh 8-9



Görüşlərdə YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı çıxış edərək bildirib ki, partiyanın rayon təşkilatı hər seçkiyə çox ciddi və qələbə əzmi ilə hazırlaşır: “Çoxillik təcrübəmiz, deməyə imkan verir ki, biz bu seçkidə də mütləq çoxluqla qələbə qazanacağıq. Çünki hər dəfə keçirilən seçkilərə yeni texnologiya ilə, layiqli namizədlərlə, ən başlıcası isə, Ümummilli Lider Heydər Əliyev ideyaları ilə gedirik”.

M.Mirxaslı, həmçinin, son illər həyata keçirilən iqtisadi inqilabi islahatlardan danışaraq, Azərbaycanın uğurlu və inkişaf etmiş dövlətlər sırasında olmasının fərəh doğuran nailiyyətlər olduğunu bildirib. Qeyd edib ki, parlament seçkilərində, respublikamızın hər yerində, o cümlədən, Cəlilabad rayonunda da seçicilərin böyük fəallıq nümayiş etdirməsi heç kəsdə şübhə doğurmur və cəlilabadlılar, birmənalı olaraq, Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədə dəstək olacağını əminliklə söyləmək olar.

Namizədin vəkili Cahangir Muradov Malik Əvəz oğlu Həsənovun həyat və fəaliyyəti haqqında seçicilərə məlumat verərək, namizədin seçki platformasını təfərrüatı ilə şərh edərək, seçiciləri YAP-ın irəli sürdüyü namizədə səs verməyə çağırıbdır.

Görüşlərdə çıxış edən seçicilər də Yeni Azərbaycan Partiyası tərəfindən Milli Məclisə namizədliyi irəli sürülmüş Malik Əvəz oğlu Həsənov böyük ümid bəslədiklərini, 9 fevral 2020-ci il tarixində keçiriləcək parlament seçkilərində onu dəstəkləyəcəklərini bildiriblər. Yeni Azərbaycan Partiyasının seçki siyahısı ilə 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən deputatlığa namizədi Malik Əvəz oğlu Həsənov çıxışında rayonun seçiciləri ilə görüşdən məmnun olduğunu bildirib. Qeyd edib ki, ölkənin hər bir sahəsində baş verən uğurlar Cəlilabada da öz təzahürlərini tapır. Rayonun kənd və qəsəbələrində geniş quruculuq və abadlıq işlərinin aparıldığını söyləyən Malik Həsənov bu uğurların davamlı olmasında Yeni Azərbaycan Partiyasının müstəsna xidmətləri olduğunu bildirib. Namizəd onu da vurğulayıb ki, bütün seçkilərdə Cəlilabad ictimaiyyəti ölkədə həyata keçirilən mütərəqqi ideyalara hər zaman dəstək verib və ölkə Prezidenti İlham Əliyevin daxili və xarici siyasətini, birmənalı şəkildə dəstəkləməklə, hər zaman Onun yanında olduğunu nümayiş etdirib. Bütün bunlara əsaslanaraq, demək olar ki, cəlilabadlılar bu dəfə də düzgün qərar qəbul etməklə, 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədlərə dəstək verəcəklər.

M.Həsənov sonda cəlilabadlıları fevralın 9-da keçiriləcək seçkilərdə daha aktiv olmağa və ona səs verməyə çağırdı.

## Qusar

51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Azər Badamovun növbəti görüşləri rayonun Sudur, Gican və Düztahir kənd seçiciləri ilə keçirilib.

Görüşü YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən səmərəli daxili və xarici siyasət, iqtisadi, sosial və hüquqi islahatların şaxələndirilməsi nəticəsində Azərbaycanın, nəinki regionun, bütövlükdə, dünyanın ən stabil inkişaf tempinə malik dövlətləri sırasında yer aldığını bildirib. Qeyd edib ki, belə bir ölkədə yeni infrastruktur layihələri icra olunur, əhalinin rifahının daha da yüksək səviyyədə təmin edilməsi, ictimai-siyasi sabitliyin davamlı və daha da möhkəm olması istiqamətində mühüm işlər görülür. Rayon təşkilatı sədri daha sonra deputatlığa namizəd Azər Badamovun fəaliyyəti və gördüyü işlər ətrafında seçicilərə məlumat verib.





Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək, millət vəkili olduğu illərdə gördüyü işlər və qarşıda duran vəzifələr haqqında seçiciləri məlumatlandırıb.

Tədbirdə iştirak edən namizədin vəkili Fərhad Pirmətov deputatlığa namizəd A.Badamovun həyat və fəaliyyəti haqqında ətraflı məlumat verib. O, seçiciləri Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyini irəli sürülmüş A.Badamova səs verməyə çağırıb.

Görüşdə çıxış edən kənd sakinləri Adil Dəmirov, Hidayətxan Əlixanov, Nazim Xanmuradov, Şəhabəddin Saruxanov, İqrar Bədəlov, Məsud Poladov və Ədalət Qarayev Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizəd A.Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

## Şabran






Milli Məclisə 9 fevral 2020-ci il tarixində keçiriləcək növbəti seçkilərlə bağlı təbliğat-təşviqat kampaniyası Azərbaycanın bütün bölgələrində uğurla davam edir. Bununla əlaqədar, Yeni Azərbaycan Partiyasının seçki siyahısı ilə 54 saylı Şabran-Siyəzən Seçki Dairəsindən namizədliyi irəli sürülən Sadiq Haqverdi oğlu Qurbanov təbliğat-təşviqat kampaniyası müvəffəqiyyətlə həyata keçirilir.

Yeni Azərbaycan Partiyasının Şabran rayon təşkilatı YAP-ın namizədi Sadiq Qurbanovun təşviqatı ilə əlaqədar yanvarın 22-də, ilk öncə, 20 Yanvar şəhidlərini ziyarət edib, sonra aprel döyüşlərində şəhid olmuş Babək Vəfadar oğlu Abidovun ev-muzeyində olub, ailəsi ilə görüşüb. Sadiq Qurbanov bildirib ki, Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı qəhrəmancasına şəhid olan Babək Abidov torpaq və Vətən uğurunda canını qurban verən şəhidlərimizin həmişə dövlət qayğısı ilə əhatə olunduğunu bildirib: “Bu gün bütün şəhid, Qarabağ əlillərinin ailələri, yaralanmış əsgər və zabitlər dövlətin hərtərəfli qayğısı ilə əhatə ediliblər. Dövlət başçısının tapşırığına uyğun olaraq, şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq, əlil olmuş hərbçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilir, Prezidentin aylıq təqaüdləri və müavinətlər təyin olunub. Şəhid ailələrinə birdəfəlik ödəmələr verilib, onlar üçün Prezidentin aylıq təqaüdünün məbləği, mütəmadi olaraq artırılıb. Həmçinin, sizlər həmişə bizim əzizlərimizsiniz və sizlərə qayğı göstərmək hər birimizin borcudur”.

Yeni Azərbaycan Partiyası tərəfindən 54 saylı Şabran-Siyəzən DSK-da namizədliyi irəli sürülmüş Sadiq Qurbanov Şabran ağsaqqallar ilə görüş keçirərək, onların xeyir-duasını aldı. Ağsaqqallar deputatlığa namizəd Sadiq Qurbanova öz arzu və istəklərini çatdıraraq, onu millət vəkili kimi görmək istədiklərini bildiriblər.

YAP Şabran rayon təşkilatının qərargahında keçirilən görüşdə çıxış edən rayon təşkilatının sədri Mehdi Balabəyov ölkəmizin qanunverici orqanı olan parlament seçkiləri haqqında danışıb. M.Balabəyov Milli Məclis üzvlüyünə Yeni Azərbaycan Partiyasının namizədi Sadiq Qurbanovun seçki platforması barədə dolğun, ətraflı məlumat verib və seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər parlament seçkilərində də bir yumruq kimi birləşəcəklərini söyləyərək, Yeni Azərbaycan Partiyasının namizədinə dəstək olacaqlarını bildiriblər. Seçicilərlə görüşdə çıxış edən 54 saylı Şabran-Siyəzən DSK-da namizədliyi irəli sürülmüş Sadiq Qurbanov ölkədə regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət ayrılması nəticəsində, Azərbaycanın hər bir yaşayış məntəqəsinin sürətlə inkişaf etdiyini vurğulayıb. Ölkəmizdə neft-qaz sahəsi ilə yanaşı, qeyri-neft sektorunun və aqrar sahənin inkişafına böyük diqqət göstərildiyini vurğulayan deputatlığa namizəd, bunun ölkəmizin hərtərəfli tərəqqisinə yol açdığını deyib. Sadiq Qurbanov seçkidə namizədi olduğu partiyanın “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!” şüarı ilə getdiyini bildirib və Yeni Azərbaycan Partiyasının parlament seçkilərində böyük və inamlı qələbə qazanacağına əmin olduğunu vurğulayıb.

## Balakən



Dünən Yeni Azərbaycan Partiyası Balakən rayon təkilatı Seçki Qərargahında 109 saylı Balakən Dairə Seçki Komissiyasından Milli Məclisin üzvlüyünə namizəd Nəsib Məhəmməliyevin rayonun təhsil və səhiyyə işçiləri ilə görüşü keçirilib.

Ardı Səh. 11

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-10



Deputatlığa namizəd Nəsib Məhəməliyevlə görüşən müəllimlər rayon təhsilinin ümumi vəziyyəti haqqında məlumat verərək, bir sıra istək və arzularını bildiriblər. Texniki və Humanitar Təmayüllü Liseyin dil-ədəbiyyat müəllimi Əyyub Abdullayev, Qazma kənd 2 saylı orta məktəbin direktoru Əkrəm Eminov, səhiyyə işçiləri Fərhad Əliyev, Məmməd Əhmədov və başqaları çıxış edərək, seçki günü YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

Görüşdə çıxış edən deputatlığa namizəd Nəsib Məhəməliyev görüş iştirakçılarını əmin edərək, Milli Məclisə seçiləcəyi təqdirdə, qaldırılan məsələlər barəsində müvafiq komissiyalar qarşısında məsələ qaldıracaq və göstərilən iradların aradan qaldırılması üçün səylərini əsirgəməyəcəyini bildirib.

## Saatlı

Dünən Yeni Azərbaycan Partiyasının 65 saylı Saatlı-Sabirabad-Kürdəmir Seçki Dairəsindən namizədi Əhliman Əmiraslanovun təbliğat -təşviqatı ilə bağlı rayonun Sor-Sor, Çöl-Ərəb, Mollakənd, Türkədi, Çərtəyəz, Ərəbxana, Köhünlü, Şüşün, Qaramahmudlu, Qocalı, Pirəkörə, Beyi, Xəlsə kəndlərinin seçiciləri ilə görüşlər keçirilib.

Görüşləri YAP Kürdəmir rayon təşkilatının və YAP Mərkəzi Seçki Qərargahının Kürdəmir rayon şöbəsinin sədri Ağali Kərimli açaraq, partiyanın ölkəmizin inkişafındakı rolundan danışaraq, əvvəlki seçkilərdə olduğu kimi, qarşıdakı seçkilərdə də seçicilərin böyük əksəriyyətinin YAP-ın "Daha güclü Azərbaycan naminə!" seçki devizi altında uğur qazanacağından və növbəti 5 ildə də uğurlu nailiyyətlərin şahidi olacağını deyib və bütün seçiciləri seçkilərdə fəal olmağa çağırıb.

Görüşlərdə rayon Seçki Qərargahının üzvləri Sabir Novruzov, Əhliman Kərimov, Rauf Abuşov, Mais Bayramov çıxış edərək ölkəmizin sürətli inkişafından danışaraq, ölkənin inkişafında aparıcı siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının namizədi akademik Əhliman Əmiraslanovun Azərbaycan tibb elmini dünyada tanıdan alimlərdən biri olduğunu seçicilərin diqqətinə çatdırıblar.

Parlament seçkilərinə YAP tərəfindən namizədliyi irəli sürülən Əhliman Əmiraslanov seçki platforması və növbəti dəfə millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlər barədə məlumat verib. Daha sonra ölkəmizdə həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışaraq, əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin davam etdirdiyi siyasi kursun Azərbaycana cox böyük uğurlar qazandırdığını diqqətə çatdırıb: "Xalqımızın ölkə Prezidentinə olan inamı və rəğbəti, onu deməyə əsas verir ki, bu seçkilərdə də YAP namizədlərinin qalib gələcəyi şübhəsizdir".

Görüşlərdə seçicilər adından cıxış edən kənd sakinləri fevralın 9-da seçki məntəqələrinə gedərək, birmənalı olaraq, YAP-ın namizədini, hörmətli ziyalı, akademik Əhliman Tapdıq oğlu Əmiraslanovu dəstəkləyəcəklərini bildiriblər.

## Xaçmaz

YAP Xaçmaz rayon təşkilatı 9 fevral 2020-ci il tarixində keçiriləcək Milli Məclisə seçkilərinə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Eldəniz Adil oğlu Səlimovla mədəniyyət işçiləri, Hülövlü, Qaradağlı, Mehrəliqışlaq, Qaradağbuduq, Qobuqıraq, Rəhimoba kənd seçiciləri ilə görüşləri keçirilib. Görüşü giriş sözü ilə YAP Xaçmaz





rayon təşkilatının sədr müavini Abasyar Heydərov açaraq, 9 fevralda keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasının, ilk gündən gözlənildiyi kimi, uğurlu olduğunu söyləyib. A.Heydərov Yeni Azərbaycan Partiyasının 55 saylı Xaçmaz kənd Seçki Dairəsindən Milli Məclisə namizədi Eldəniz Adil oğlu Səlimovun həyat və fəaliyyəti ilə bağlı seçicilərə məlumat verib və YAP-ın Milli Məclisə irəli sürdüyü namizədin, göstərilən etimadı, yüksək səviyyədə doğruldacağına əminliyini bildirib.

Görüşdə Nazim Ağayev, Telnaz Adıgözəlova, Fərid Musayev, Elmira Bağırova, Pakizə Mehdiyeva, Könül Əsgərova və başqaları çıxış edərək, Mahmud Abdullayev, Fatma Fərzəliyeva, Nəsrəddin Osmanov, Vaqif Səlimov və başqaları çıxış edərək, deputatlığa namizəd kimi Eldəniz Səlimovun müsbət şəxsi keyfiyyətlərinin olduğunu vurğulayaraq və seçki günü hamılıqla partiyanın namizədinə səs verəcəklərini bildiriblər.

Sonra çıxış edən YAP-ın 55 saylı Xaçmaz kənd Seçki Dairəsindən namizəd Eldəniz Adil oğlu Səlimovun platforması barədə danışıb. O, kənd sakinlərinin ona səs verəcəyi və deputat seçiləcəyi təqdirdə, verdiyi bütün vədlərin həyata keçirilməsinə çalışacağını bildirib. Görüş iştirakçıları isə, mövcud problemlər barədə namizədə məlumat verib və təkliflər irəli sürülüb.

Sonda görüşdən razı qalan sakinlər namizədin çıxışını böyük maraq və rəğbətlə qarşılayıblar və Yeni Azərbaycan Partiyasının namizədi Eldəniz Adil oğlu Səlimovu dəstəkləyəcəklərini bildiriblər.

## Oğuz



Dünən YAP tərəfindən namizədliyi irəli sürülən 117 saylı Oğuz-Qəbələ Seçki Dairəsində qeydə alınmış deputatlığa namizəd Aqiyə Naxçıvanlı Oğuz rayon Kərimli və Qarabaldır kəndində sakinlərlə, günün ikinci yarısında isə Bayan



kəndində kənd ictimaiyyəti və seçicilərlə qarşılıqlı fikir mübadiləsi şəraitində səmimi görüş keçirib. Görüşdə Aqiyə Naxçıvanlı və təbliğat-təşviqat qrupunun üzvləri Yeni Azərbaycan Partiyasının Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov, namzədin vəkilləri Emin Əzimli, Elşən Alcansoy, rayon ağsaqqallar şurasının sədri Cumayev Cuma və kənd ağsaqqalı Xalid Babayev iştirak ediblər. Görüş zamanı millət vəkili olduğu zaman Aqiyə Naxçıvanlı tərəfindən görülmüş və görüləcək işlərdən, dövlət siyasətindən, aparılan islahatlardan danışıldı, sakinlərin fikirləri, təklif və problemləri dinlənilərək, qeydə alınıb.

## Binəqədi





Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında 9 fevral tarixində ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 8 saylı Binəqədi birinci Seçki Dairəsi üzrə irəli sürülmüş Kubra Əliyarlının, 10 saylı Binəqədi üçüncü Seçki dairəsi üzrə irəli sürülmüş Anar Əliyevin gənc seçicilərlə görüşü keçirildi.

Görüşü giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov ölkəmizdəki seçki prosesi haqqında gənclərə məlumat verdi. Milli Məclisə seçkilərə hazırlıqla bağlı görülən işlərdən, seçki qərargahının fəaliyyətindən, eləcə də, təbliğat kampaniyası çərçivəsində seçicilərlə keçiriləcək çoxsaylı görüşlərdən bəhs etdi. İlk görüşlərdən birinin, məhz gənclərlə keçirilməsinin təsadüfi olmadığını söylədi.

Ardı Səh. 12

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

**Əvvəli-Səh-11**

Gənclərimizə hər zaman diqqət və qayğının olduğunu, xüsusi dövlət proqramlarının icra olunduğunu, onların cəmiyyətdə layiqli təmsil olunması istiqamətində bundan sonra da mühüm islahatların həyata keçiriləcəyinə əminliyini bildirdi. Bütün gəncləri həmyaşıdları olan YAP-ın gənc namizədlərinə səs verməyə çağırdı.

Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi 8 saylı Binəqədi birinci Seçki Dairəsi üzrə irəli sürülmüş Kubra Əliyarlı geniş çıxış edərək, gənc seçiciləri salamladı. Bildirdi ki, namizədliyinin irəli sürülməsi onun timsalında gəncliyə göstərilən yüksək etimaddır. Ölkəmizdə dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasətindən bəhs etdi. Gəncləri maraqlandıran və həllini gözlədikləri bir sıra məsələləri vurğuladı. Hər zaman gənclərin təkliflərini və təşəbbüslərini dəstəkləməyə hazır olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, uzun müddətdir Binəqədi rayonunun ictimai-siyasi həyatında yaxından iştirak edir, həm də bələdiyyə üzvü kimi daim gənclərlə sıx ünsiyyətdədir, onlarla çiyin-çiyinə müxtəlif tədbirlərdə birgə iştirak edir. Onların arzu və istəklərini və onları narahat edən məsələləri bilir. Gənc seçicilərin etimadını qazanaraq millət vəkili seçilərsə, bu etimadı layiqincə doğruldacağını və gənclərə hər cür dəstək göstərəcəyini vurğuladı.

10 saylı Binəqədi üçüncü Seçki Dairəsi üzrə irəli sürülmüş Anar Əliyev çıxışında gənclərin inkişafına daim səylə çalışacağını, onların cəmiyyətdə fəal təmsilçiliyi istiqamətində gücünü səfərbər edəcəyini söylədi. Ölkə gənclərinin yüksək potensiala malik olduğunu, onların daim fəllaşdırılmasının və problemlərinin həllinin diqqətdə saxlanıldığını qeyd etdi. Binəqədi rayon gənclərinin də rayonun inkişafında, tərəqqisində yaxından iştirakını yüksək qiymətləndirdi. Gənclərə bundan sonra dəstək veriləcəyini söyləyərək, bütün gənc seçiciləri qarşıdan gələn Milli Məclisə seçkilərdə "Daha güclü Azərbaycan naminə" şüarı ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırdı. Görüş yüksək əhval-ruhiyyədə və gənc seçicilərin suallarının cavablandırılması ilə başa çatdı.

Sonda xatirə şəkli çəkdirildi.





**Səbail**

Dünən VI çağırış Milli Məclis seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 29 saylı Səbail Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Aytən Hüseynova Səbail rayon gəncləri ilə görüşüb. Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və rayon partiya təşkilatının sədri prof. Şəmsəddin Hacıyev son illər, xüsusilə, 2018-ci ildən etibarən Azərbaycanın ictimai, iqtisadi, humanitar və sosial həyatının istisnasız olaraq bütün sahələrində, hakimiyyətin bütün qollarında, o cümlədən, hakimiyyətin icraedici, məhkəmə-hüquq və qanunverici qollarında əsaslı islahatların, institusional və struktur dəyişikliklərin həyata keçirilməsi, ixtisaslı kadrların yenilənməsi, savadlı, yaradıcı, geniş dünyagörüşlü gənclərin irəli çəkilməsi, xüsusilə, Yeni Azərbaycan Partiyası sıralarında fəal ictimai-siyasi fəaliyyətləri ilə fərqlənən gənclərə göstərilən yüksək etimad və gənclərin özünüinkişafının dəstəklənməsi haqqında danışıb.



Yeni Azərbaycan Partiyasının potensialını, xalqın partiya siyasətinə olan etimadını xüsusi qeyd edən Ş.Hacıyev bildirdi ki, hazırda Azərbaycanda YAP ilə rəqabət apara biləcək real siyasi qüvvə yoxdur. Yeni Azərbaycan Partiyası namizədlərinə, o cümlədən, VI çağırış Milli Məclisinə keçiriləcək seçkilər üçün Yeni Azərbaycan Partiyası tərəfindən 29 saylı Səbail Seçki Dairəsi üzrə namizədliyi irəli sürülmüş Aytən Hüseynovaya uğurlar arzu edən Ş.Hacıyev YAP-ın namizədini dəstəkləməyə çağırıb.

Aytən Hüseynovanın səlahiyyətli nümayəndəsi, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin qərargah üzvü və rayon təşkilatının aparat rəhbəri dos. Zəfər Bayramov Hüseynova Aytən Arif qızının tərcümeyi-halı və partiya sıralarındakı ictimai-siyasi fəaliyyəti haqqında gənc seçicilərə geniş məlumat verib.

Çıxış edən deputatlığa namizəd Aytən Hüseynova Yeni Azərbaycan Partiyasının bu seçkilərdə gənclərə göstərdiyi yüksək etimad haqqında danışaraq, partiyanın bu etimadının deputatlığa gənc namizədlər üçün, eyni zamanda, yüksək məsuliyyət və əvəzolunmaz təcrübə olduğunu qeyd edib. A.Hüseynova onu da bildirib ki, seçiləcəyi təqdirdə, özü üçün doğma rayon olan Səbail rayonunda görəcəyi işlər YAP-ın daha güclü Azərbaycan naminə növbəti 5 il üçün müəyyənləşdirdiyi 10 sosial-iqtisadi inkişaf hədəfi çərçivəsində müəyyənləşəcəkdir.

Tədbirdə partiyanın YAP Səbail rayon gənclər birliyi sədrinin müavinləri Fuad Heydərli, Vüsal Əhmədov, Aytəkin Hacıyeva, gənc fəal, Energetika Nazirliyinin əməkdaşı Vüqar Cabbarov və Qərbi Kaspi Universitetinin tələbəsi İlkin Həsənov çıxış edərək, bu seçkilərdə də YAP qseçkiləri qələbələrlə başa vuracağını bildiriblər.

**ZÜMRÜD BAYRAMOVA,**
**RƏFİQƏ KAMALQIZI,**
**NƏZAKƏT ƏLƏDDİNQIZI**

## Əlilliyi olan şəxslərin buraxılış və qəbul imtahanlarında iştirakının təmini məqsədilə təlimat təsdiqlənib



**Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurası tərəfindən buraxılış və qəbul imtahanlarında əlilliyi olan və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək namizədlərin iştirakının təmini məqsədilə əlverişli şəraitin yaradılmasına dair təlimat təsdiqlənib.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, təlimatda imtahanda iştirak edən, əlilliyi olan və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək namizədlərin kateqoriyaları, istifadə olunan əsas anlayışlar, imtahanda ayrı-ayrı kateqoriyalardan əlilliyi olan və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək namizədlərin iştirakının təmin edilməsi məqsədilə yaradılan əlverişli şəraitin məzmunu və digər məsələlər əksini tapıb. Təlimatla DİM-in saytında tanış olmaq mümkündür.

## 2020-ci ildə keçiriləcək imtahanların tarixləri açıqlanıb

***Bir müddət öncə 2020-ci ilin ilk 3 ayı ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilməsi nəzərdə tutulan magistratura və doktoranturaya qəbul imtahanları, sınaq imtahanları, 9-cu sinif buraxılış imtahanlarının 1-ci mərhələsi və dövlət qulluğuna qəbul imtahanlarının tarixləri elan edilib. Artıq 2020-ci ildə keçiriləcək digər imtahanların tarixləri də müəyyən olunub.***



Mərkəzdən AZƏRTAC-a bildirilib ki, rezidenturaya qəbulun birinci mərhələsi aprelin 19-da, ikinci mərhələsi isə iyulun 17-də keçiriləcək. Bakı şəhəri və bölgələr üzrə IX siniflər üçün buraxılış imtahanlarının ikinci mərhələsi iyunun 7, 14 və 21-də keçiriləcək. Əvvəlki illərin məzunları üçün ümumi (9 illik) orta təhsil bazasında kolleclərə qəbul imtahanının ikinci mərhələsi iyulun 5-də keçiriləcək. XI siniflər üzrə buraxılış imtahanları aprelin 5, 12 və 19-da təşkil olunacaq. Əvvəlki illərin məzunları üçün I-IV qruplar üzrə qəbul imtahanının birinci mərhələsi, eləcə də V qrup üzrə ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul imtahanı aprelin 26-da keçiriləcək. Ali təhsil müəssisələrinə I və IV ixtisas qrupları üzrə birinci (yaz) qəbul imtahanı mayın 11-də, II və III ixtisas qrupları üzrə isə mayın 17-də keçiriləcək. İkinci imtahan (yay imtahanı) isə I və IV ixtisas qrupları üzrə iyunun 28-də, II və III ixtisas qrupları üzrə iyulun 10-da keçiriləcək. Digər imtahanların qrafiki ilə Dövlət İmtahan Mərkəzinin saytında tanış olmaq mümkündür. İmtahanların qrafiki Mərkəzin saytının "təqvim" bölməsinə də əlavə ediləcək. Vətəndaşlara saytın bu bölməsini mütəmadi izləməyi tövsiyə olunur.

# İqbal Ağazadə seçicilərinə nərd minnəti qoyur

*"Ümid" partiyasının sədri dairəni özününküləşdirmək cəhdində bulunur*

***Parlament seçkiləri ərəfəsində müxalifətçi, yaxud müxalifətyönlü namizədlərin arasında qalmaqallar səngimir. Belə ki, bu dəfə "Ümid" partiyasının sədri İqbal Ağazadə müvafiq dairədəki opponentinə qarşı sosial şəbəkələrdə hücum planları reallaşdırır, üstəlik, seçicilərinə minnət qoymağı da unutmur. Məsələ ondadır ki, adıçəkilən namizədin tərəfdarları sosial şəbəkələr vasitəsi ilə təhqirlər, ittihamlar, ümumiyyətlə, ən son həddə olan qarşıdurmalara rəvac verirlər.***

**Hər bir namizəd bu seçkilərdə normal üsulla, şəffaflıq və qanunauyğunluqla iştirak etmək hüququnu əldə edib**

Hətta məsələ o həddə qədər inkişaf edib ki, İ.Ağazadə seçki dairəsini özününküləşdirmək cəhdində bulunaraq, "mənim ərazim" prinsipi ilə çıxış edir. Lakin bu, onun fəaliyyətinə, əlbəttə ki, mənfi təsirlər göstərir. Bir vaxtlar Milli Məclisdə deputat olarkən, demokratiyadan, dözümlülükdən, haqdan, ədalətdən dəm vuran "Ümid" partiyasının sədri, ümumiyyətlə, özünü seçki dairəsində "lider" kimi sırıyaraq, əslində, gülünclüyünü ortaya qoyur. Məhz belə olan halda, sual edilə bilər ki, seçki dairəsini dolayı yolla özəlləşdirmək hansı seçki qanununa, Seçki Məcəlləsinə uyğun ola bilər? Hər halda, qarşıdan seçkilər gəlir və hər bir namizəd bu seçkilərdə normal üsulla, şəffaflıq və qanunauyğunluqla iştirak etmək hüququnu əldə edib və kimsəyə ixtiyar verilməyib ki, dairələri, məntəqələri özəlləşdirib, rəqiblərinə qarşı



qanunsuz əməllər törətsin.

Daha bir məsələ isə, "Ümid" sədrinin 10 min seçicini özününküləşdirmək cəhdi ilə yanaşı, həm də tərəfdarlarının qapıları gəzib, İ.Ağazadənin haradasa iki ağac əkməsindən, üç-dörd skamya quraşdırmasından, ya da bir neçə mənzilin dam örtüyünü dəyişdirməsindən dəm vurmalarıdır. Bütün bunlar isə, Ağazadənin, ümumilikdə, üç çağırış deputat olduğu illərdə görülən işlərin, demək olar ki, hamısıdır! Daha dəqiq desək, onun marağı seçici və seçicinin qayğısına qalmaq deyil, onun yeganə marağı deputat olub, kürsü tutmaqdan ibarətdir.

**Yəqin "Ümid" sədri bu dəfə domino, ya da duraki oynamağı planlaşdırıb ki, sonra da desin ki, "xalqla bir aradadır"**

Hələ bu da son deyil. Görüşlərinin birində İ.Ağazadə seçiciləri ilə nərd oynamağını minnət kimi onların boynuna qoyur. Maraqlıdır, seçicilərlə nərd oynamaq nə zamandan seçici qayğısına qalmaq, onun problemini həll etmək kimi qəbul olunub? Yəqin "Ümid" sədri bu dəfə domino, ya da duraki oynamağı planlaşdırıb ki, sonra da desin ki, "xalqla bir aradadır".

Bu arada, xatırlatmaq yerinə düşər: bu həmin İ.Ağazadədir ki, 2003-cü ilin prezident seçkilərindən sonra, 15-16 oktyabr hadisələrində - "Azadlıq" meydanında Leninin sökülmüş pyedestalı üzərinə qalxıb, əlini onun kimi irəliyə uzadaraq, xalqı itaətsizliyə çağırmışdı. Nəticədə, özü aradan çıxmış, sonra da bir müddət ortalıqdan itsə də, qanun çərçivəsində cəzasını almışdı. Bir zamanlar canın qorxusundan qaçıb-gizlənən "Ümid" sədri indi də nərd, domino, kart və s. stolüstü oyunları ilə seçiciləri aldatmaq fikrinə düşüb. Amma türk qardaşlarımız demişkən, bu dəfə yeməzlər abi..!

***Rövşən NURƏDDİNOĞLU***

# Müxalifətin imici ləkəlidir

***"Human Rights Watch" kimi təşkilatların maraqları ilə Azərbaycanda imiclərini itirmiş müxaliflərin maraqları üst-üstə düşdüyündən əməkdaşlıq edirlər. Qərəzli beynəlxalq təşkilatlardan olan "Human Rights Watch" təşkilatı yenidən Azərbaycan haqqında yalana, böhtana əsaslanan və guya Azərbaycanda insan hüquqlarının demokratiyanın mövcud olmaması barədə hesabat yayıb.***

Söz yox ki, bu qondarma hesabatın hazırlanaraq yayılmasında Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər və Cəmil Həsənlinin göndərdikləri donosun müəyyən qədər rolu olub. Bu isə istər yerli, istərsə də xarici qüvvələrin eyni mərkəzdən Azərbaycana qarşı idarə olunduqlarını göstərir. Bizimlə söhbətində AXCP sədri Əli Kərimlinin əmisi oğlu, "Azərbaycan fermeri" qəzetinin baş redaktoru Nuhəli Kərimov müxalifətin dağıdıcı qanadının xarici pozucu qüvvələrlə geniş iş birliyində olduğunu və qarşılıqlı əlaqələrin nəticəsi olaraq Ə.Kərimlinin, C.Həsənlinin və A.Hacılının həmin məkrli qüvvələrdən maliyyə yardımları aldıqlarını bildirdi: "Human Rights Watch" hər zaman olduğu kimi, bu dəfə də Azərbaycan haqqında reallığı özündə əks etdirməyən hesabat yayır. Yalan və böhtan üzərində qurulan bu hesabat əvvəlki hesabatların kopyasından başqa bir şey deyil. Hər kəs, o cümlədən, beynəlxalq təşkilatlar Azərbaycanda sürətli inkişafın şahididir. Ölkəmiz tam demokratik siyasət prinsipində öz fəaliyyətini həyat keçirir. Ölkəmizin daxilindəki və xaricindəki məkrli qüvvələrin bir mərkəzdə ona görə cəmlənir ki, artıq onlar Azərbaycanda gedən bu sürətli inkişafın və demokratiya əsasında qurulan bu dövlətin böyük gələcəyini görür və onu qısqanırlar. Yəni onlar bu inkişafdan narahatçılıq keçirdiklərindən başlayırlar ölkəmizi qınaq "atəşinə" tutmağa. Bu tip anormal qərəzli hesabatların hazırlanmasında və yayılmasında Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər və Cəmil Həsənli kimi dağıdıcı xislətli ünsürlərin müəyyən rolları var. Çünki məhz bu gədələr qismində çıxış edən müxalif ünsürlər



Azərbaycanın beynəlxalq aləmdəki imicinə ləkə vurmaq üçün özlərindən uydurduqları qondarma məlumatları "Human Rights Watch" kimi özlərinə yaxın təşkilatlara göndərirlər. Hansı ki, Human Rights Watch təşkilatının əsas idarəedici rəhbərliyi erməni lobbisinin əlindədir. Bu kimi faktlar bir daha müxalif dağıdıcı qüvvələrin ermənilərlə iş birliyində olduqlarını və fəaliyyətlərini onların göstərişləri əsasında qurduqlarını təsdiqləyir. Müxalif ünsürlər Azərbaycanda öz imiclərini o səviyyədə itiriblər ki, artıq onun bərpasının olmadığını başa düşürlər. Onlar ləkəli imiclərini bərpa etmək imkanından kənar olduqlarına görə başlayıblar belə böhtan xarakterli vasitələrdən bəhrələnməyə. "Human Rights Watch" kimi təşkilatların maraqları ilə Azərbaycanda imiclərini itirmiş müxaliflərin maraqları üst-üstə düşdüyündən, əməkdaşlıq edirlər. Ancaq bir fakt unudulmamalıdır. Onların ölkəmizlə bağlı məkrli planları heç vaxt baş tutmayacaqdır. Hər zaman olduğu kimi, bu dəfə də onlar uğursuzluğa düçar olacaqlar".

***GÜLYANƏ***

## Qaxda beşotaqlı ev yanıb

Qax rayonunda güclü yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, hadisə rayonun Lələli kəndində ümumi sahəsi 176 kvadratmetr olan birmərtəbəli evdə qeydə alınıb. Nəticədə beşotaqlı ev yararsız vəziyyətə düşüb. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb. Hadisə ilə bağlı müvafiq qurumlar tərəfindən araşdırma aparılır.





**Təhmasib Novruzov**

## Bəlkə deputat olmaq istəyənlər də imtahan versinlər!..

***Ölkəmizdə ədalətin, obyektivliyin və şəffaflığın təmin olunması məqsədilə, kadrların imtahan verərək işə qəbul edilməsi kimi dəyərli bir ənənə, artıq neçə illərdir ki, formalaşıb. Səmimi deyək ki, bu ənənə təsadüfi adamların həm dövlət qulluğuna, həm də digər sahələrdə işə düzəlməsinin qarşısını xeyli alıb. Bunu hər birimiz gündəlik qarşılaşdığımız müxtəlif sahələrdəki məmurlarla, hüquq-mühafizə işçiləri, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdəki əməkdaşlarla ünsiyyətimiz zamanı açıq-aydın hiss edirik.***

Birbaşa ölkə başçısının təşəbbüsü olan bu ənənə, yəni hər bir kadrın imtahanla seçilib təyin edilməsi, cəmiyyətimizin inkişafında çox ciddi, əhəmiyyətli rol oynayır. İnkişafımızın sürətinin ilbəil artmasında, heç şübhəsiz, bu ənənə mühüm əhəmiyyət kəsb edir. Yəni müəllimdən başlamış səhiyyə, mədəniyyət, məhkəmə, prokurorluq və polis əməkdaşlarına kimi, işləmək istəyən hər kəs DİM tərəfindən təşkil olunan testdən keçərək, işə qəbul edilmək hüququ əldə edir. Amma xüsusi bilik tələb edən çox mühüm bir sahə var ki, orada hər şey yalnız seçicilərin səs vermələri ilə həll edilir. Bilirəm, bu sözlərimə dodaq büzən, hətta yazının ardını oxumadan qəzeti qatlayıb kənara qoymaq istəyənlər olacaq. Ancaq məsləhət görərdim ki, bir azca hövsələ göstərib, yazını axıra kimi oxusunlar, sonra haqlı olub-olmadığıma qərar versinlər. Söz yox, hər bir demokratik cəmiyyətdə olduğu kimi, Azərbaycanda da Prezident, millət vəkilləri və bələdiyyə şuraları xalqın səsverməsi ilə müəyyənləşir. Bu, ölkəmizin Ali Qanunu - Konstitusiyası ilə təsbit edilmişdir ki, bunu da kimsənin dəyişmək haqqı yoxdur. Ancaq deputat olmaq istəyən, parlamentdə təmsil olunmaq istəyən hər kəs gərək özünün buna daxili potensialının olub-olmadığını müəyyən edə bilsin. Yəni bir vətəndaş nümunəvi müəllim, həkim, mədəniyyət xadimi, vətənpərvər hərbçi və sairə ola bilər. Kimsə Vətən uğrunda döyüşlərdə qəhrəmanlıq şücaəti göstərə bilər, əlil ola bilər, kimlərinsə atası, həyat yoldaşı, qardaşı Vətən yolunda canından keçə, şəhid ola bilər. Ancaq bütün bunlar onun hökmən deputat seçilmək haqqı olduğuna dəlalət eləmir. Parlament- qanunların qəbul edildiyi və cəmiyyətə düzən verilməsini təmin edən ali qurumdur. Bu quruma düşmək istəyən hər kəs Vətən qarşısındakı xidməti ilə yanaşı, özünün siyasi, hüquqi, iqtisadi savadı haqqında da düşünməlidir. Bu günlərdə Vətən uğrunda sağlamlığını itirən, gerçək vətənpərvər bir namizədin vəkili zəng vurub, namizədin mənimlə görüşmək istədiyini söylədi. Çox hörmət bəslədiyim həmin Vətən fədaisi ilə onun öz qərargahında görüşdüm. Çox sevindim ki, keçmiş döyüşçü dostum mənimlə açıq söhbət elədi və əgər məsləhət olsa, ona dəstək verməyimi istədi. Ona da sevindim ki, qeyrətli Vətən oğlu kimi mənim dediklərimin hamısını səmimi qəbul etdi və hətta konstitusiyanın neçə fəsildən, neçə maddədən ibarət olduğunu bilmədiyini belə etiraf etdi. Söhbətimizin nəticəsi o oldu ki, dostum namizədliyini Allahın ümidinə buraxacağını, ciddi təbliğat qurmayacağını, həmin dairədən namizəd olan digər daha savadlı və layiqli namizədin seçilməsinə dəstək verəcəyini bildirdi. Razılaşaq ki, bəzən cəmiyyətdəki anormal məqamları görsək də, kimsə inciyər deyib o barədə danışmaq istəmirik. Dövlətimizin taleyi ilə bağlı məsələdə, hesab edirəm ki, bu stereotipdən imtina olunmalıdı. İnsanlara həqiqəti doğru-düzgün izah edəndə, əlbəttə, dövlətini sevən insan özü bu yanlışlıqdan dönə bilər. Nəticədə, daha peşəkar, daha savadlı deputatlardan ibarət parlament formalaşmış olur ki, bundan da dövlət və xalq qazanmış olur. Yox, əgər özümüz bunu müəyyən etməyi bacarmırıqsa, o zaman namizədliyi qeydə alınmazdan əvvəl, hər bir deputat olmaq istəyən vətəndaş hüquqdan, iqtisadiyyatdan, ixtisasından və xüsusilə, siyasətşünaslıqdan test olunsun. Bu test elektron vasitələrin köməyilə açıq şəkildə seçicilərə çatdırıla bilər ki, bu da obyektivliyin təmin olunmasına yardım etmiş olar. Mənim təklifimə kim necə baxır-baxsın, amma hesab edirəm ki, gec-tez bu bir zərurət olaraq cəmiyyət tərəfindən qəbul olunacaq.

# Əli Kərimli trollarının təhqirlərini sərtləşdirməyə məcbur edir

## *Tənqid və təhqir kampaniyasından AXCP sədrinin keçmiş müavini Asim Mollazadənin kənar qalması təəccüb doğurmaya bilməz*

***Müxalifət düşərgəsində baş verən qarşıdurmalar fonunda diqqətçəkən əsas məsələlərdəndə biri 9 fevral parlament seçkilərinə qatılan bəzi müxalif simaların və ya simasızların seçici rəğbəti qazanmaq üçün müxtəlif şoular yaradıb, məzhəkələr qurmalarıdır. "Ümid" partiyasının ağ-qara libaslı sədri İqbal Ağazadənin namizədliyi qeydə alınan seçki dairəsi ərazisində, əlləm-qəlləm əməllər törətməsindən saytlar çox yazıb, bəzi narazı şəxslər kifayət qədər etirazlar səsləndiriblər. İndi də, meydana Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə çıxıb. Bu, həmin A.Mollazadədir ki, 1994-cü ilin yanvarından - 2005-ci ilin aprelinədək Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin xarici məsələlər üzrə müavini olmuş, 2005-ci ildə isə, AXCP-dən ayrılaraq, Demokratik İslahatlar Partiyası adlı oyuncaq partiya yaradıb. A.Mollazadə AXC-Müsavat hakimiyyəti dövründə əvvəl Prezident Aparatının analitik-informasiya şöbəsinin rəhbəri olub.***

O, istər hakimiyyət dövründə, istərsə də partiya sədrinin müavini olduğu dövrdə AXCP sədri Ə.Kərimlinin ən yaxın adamlarından biri kimin tanınıb. Demokratiyanın İnkişaf Fondunun rəhbərlərindən biri olaraq Asim Mollazadənin Beynəlxalq donor təşkilatları, xüsusilə də, ABŞ-da fəaliyyət göstərən ayrı-ayrı donor təşkilatları ilə sıx əlaqəsi olduğu və onlar vasitəsilə alınan qrantların Əli Kərimli və AXCP üzvlərinin yaratdığı ayrı-ayrı QHT-lərə ötürdüyü ilə bağlı, zaman-zaman mətbuatda yazılar dərc olunub. AXCP üzvləri tərəfindən çoxsaylı siyasiləşmiş QHT-lərin yaradılması da, məhz həmin dövrlərə təsadüf edir.



### Alınan 95.000 ABŞ dolları məbləğində qrantın aqibəti bəlli olur

KXCP sədri Mirmahmud Mirəlioğlu mətbuata verdiyi açıqlamasında bildirib ki, "Azərbaycanda "Demokratiyanın İnkişaf Fondu" adlı bir fond var idi və fondun prezidenti Əli Məsimov, vitse-prezidenti də Asim Mollazadə idi: "O, fondun bütün maliyyə məsələlərinə Asim Mollazadə rəhbərlik edirdi. Fondun maliyyə vəsaitlərinin çoxu Əli Kərimli vasitəsilə Elçibəyin əleyhinə işlədilmişdi. Demokratiyanın inkişafına yox, Elçibəyə qarşı sərf olunmuşdu. Bunlar da bir tarixdi".

Araşdırmalar və faktlar təsdiq edir ki, Azərbaycanda Demokratiyanın İnkişaf Fondu 1995-ci ildə xaricdən mərhələlərlə 95000 ABŞ dolları məbləğində fakt alıb. Görəsən, bu məbləğ hara xərclənib? AXCP sədrinin beynəlxalq əlaqələr üzrə müavini A.Mollazadənin dediyinə görə, guya bu qədər məbləğ 1995-ci ildə parlament seçkiləri ilə bağlı respublikanın müxtəlif bölgələrində tədbirlərin keçirilməsinə və aparıcı (?) KİV-lərə xərclənib... Söhbət heç şübhəsiz ki, "Yurd" qruplaşmasına yaxın olan mətbuat orqanlarına edilən maddi yardımlardan gedir. Həmin mətbuat orqanlarının Ə.Kərimlinin inhisarında olduğunu xatırlatsaq, əlavə şərhə ehtiyac duyulmur. Bundan əlavə, parlament seçkiləri ərəfəsində respublikanın müxtəlif bölgələrində keçirilən tədbirlərdə də kimlərin siyasi maraqlarının müdafiə olunduğunu və təbliğ edildiyini nəzərə alsaq, bir çox qaranlıq məqamlar aydınlaşar və həmin məbləğin "Yurd" qruplaşması üçün xərcləndiyinə şübhə yeri qalmaz..."

AİHDK-nin sədri Çingiz Qəniyev "Ulus" qəzetinin 9 fevral 2000-ci il sayına açıqlamasında deyir: "95.000 dollar qrantın ADİF tərəfindən alındığı həqiqətdir. Bu, xarici mətbuat orqanlarında da öz əksini tapıb... Ancaq bu kimi məsələlərdə daha aktiv olan, qrantın xərclənmə istiqamətlərini təyin edən A.Mollazadədir. Heç kimə sirr deyil ki, A.Mollazadənin ayrı-ayrı xarici təşkilatlarla sıx əlaqəsi var... Hamıya aydındır ki, A.Mollazadə Ə.Kərimlini, demək olar ki, bütün xarici səfərlərdə müşayiət edir, onun görüşlərini təşkil edir və s... Mən deyə bilmərəm ki, həmin məbləğ 95-ci ildəki seçki kampaniyasına, KİV-lərə, mühafizəçilərin saxlanmasına və ya avtomobil alınmasına (?) xərclənib... Qrantlar təyinatı üzrə xərclənməlidir... Yəni qrantın KİV üçün ayrılan hissəsinin "Yurd"çuların dəsti-xəttini dəstəkləyən mətbuat orqanlarında xərcləndiyi şübhəsizdir. Yaxşı olardı ki, Asim Mollazadə bu barədə qəzetlərin birində açıqlama versin... Hər halda həmin məbləğin bir hissəsinin şəxsi ciblərə axdığını istisna etmirəm".

### Bu qarşılıqlı "sevginin" altında nə dayanır?

"Yeni Müsavat" qəzeti 27 iyul 2002-ci il. "Cəbhənin taleyi cəbhəçi gözündə" Ədalət Talıblı: "Elçibəyin Bakıda olmamasından yararlanaraq, 1995-ci ildə partiya rəhbərliyini ələ keçirmiş, "Yurd"un özünün başçısı (Əli Kərimli), Elçibəyi lider kimi qəbul etməyən öz rayon şöbələri, özünün möhkəm maliyyə qaynaqları (daha çox Asim Mollazadənin xəttilə) və özünün geniş təbliğat şəbəkəsi vardı." "Yurd" qruplaşmasının əsas qrant daşıyanı olan A.Mollazadə ilə bağlı mətbuatın arxivində kifayət qədər bu kimi məlumatlar tapmaq mümkündür. Bu gün AXCP-ni tərk edən və bundan sonra ayrıca partiya yaradan kifayət qədər siyasilər var. Bunların içərisində KXCP sədri Mirmahmud Mirəlioğlunu, BAXCP sədri Qüdrət Həsənquliyevi, BQP sədri Fazil Qəzənfəroğlunu, MDHP sədri Fərəc Quliyevi göstərə bilərik. Adlarını çəkdiyimiz şəxslərdən hər birinin AXCP-dən ayrıldıqları dövrdən bu günə qədər Ə.Kərimli ilə bağlı zaman-zaman çox sərt bəyanatlarının olduğunun şahidi olmuşuq. Öz növbəsində, Ə.Kərimlinin də adları çəkilən eks cəbhəçilərlə bağlı kifayət qədər tənqidi müsahibələri olub. Ə.Kərimli trolları vasitəsilə eks cəbhəçilərə qarşı aparılan kampaniya bu gün də davam edir. Belə ki, istər M.Mirəlioğlunun, istər Q.Həsənquliyevin, istər F.Qəzənfəroğlunun, istərsə də F.Quliyevin mətbuat səhifələrində gedən çıxışlarındakı şərh bölmələrinə baxsaq, AXCP üzvləri tərəfindən adları çəkilən şəxslərə qarşı necə kampaniya aparıldığının şahidi olarıq. Maraqlısı odur ki, mətbuatın arxivində bu günə qədər A.Mollazadənin Ə.Kərimlini tənqid edən və əksinə, Ə.Kərimli tərəfindən A.Mollazadə ilə bağlı tək bir məqaləyə, çıxışa belə rast gəlmək mümkün deyil. Görəsən, niyə? Bu qarşılıqlı "sevginin" arxasında nə dayanır? Keçmiş dost münasibətlərimi? Yoxsa A.Mollazadə öz əlaqələrindən istifadə edərək, bu gün də "şefi" Ə.Kərimlini maliyyələşdirməkdə davam edir? Maraqlı sualdır və yəqin ki, günlərin birində bu münasibətlərdəki qaranlıq məqamlar da işıq üzünə çıxacaqdır.

**İ.ƏLİYEV**

# Ermənistanda dövlət çevrilişinə cəhd olubmu?

***Son günlər Ermənistanın ictimai-siyasi rəyinin ən çox danışdığı mövzu Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri Artur Vanetsyanın quruma rəhbərlik etdiyi zaman dövlət çevrilişi planı üzərində işləməsi barədədir. Belə ki, bu məsələdə Vanetsyanı ən çox ittiham edənlər baş nazir Nikol Paşinyanın yaxın çevrəsidir. Halbuki bir vaxtlar onun özü də Paşinyan ailəsinə ən yaxınlardan hesab olunurdu. İttihamlar isə müxtəlifdir. Misal üçün, onun hədəfi daxilində hakimiyyətdəki sorosçuların olması barədə bir sıra məlumatlar dolaşırdı.***

Daha dəqiq desək, baş nazir də daxil olmaqla, onun və komandasının, bilavasitə Soros Fondu tərəfindən maliyyələşməsi, həmin maliyyənin dəstəyi ilə "məxməri inqilab" etməsi, indi isə, adıçəkilən fondun təlimatlarını icra etməsi iddiaları mövcuddur. O cümlədən, paşinyançılar indi də belə bir suçlama ilə çıxış edirlər ki, əslində, A.Vanetsyan devrilmiş prezident Serj Sarkisyanın mövcud hakimiyyətə sızdırılmış emissarıdır və onun əsas hədəfi həmin hakimiyyəti daxildən yıxmaqdır. Hətta sabiq MTX rəhbəri uzun müddət Paşinyan ailəsində etibar qazanmağa belə nail olmuşdu. Sonradan isə gizli səsyazmalar, telefon danışıqları və digər məsələlərin də üzə çıxması sözügedən iddia və ittihamların doğruluğuna dəlalət edirdi. Lakin sonradan həmin ittihamlar aradan qaldırılmağa başladı. Təbii ki, Vanetsyanın istefası da bu kimi halların nəticəsi idi.

### MTX sabiq direktoru müdafiə edir?

Ancaq onu da qeyd edək ki, bu gün Ermənistan MTX-si nə qədər qəribə görünsə də, sabiq rəhbərin dövlət çevrilişi planı hazırlamadığını, ümumiyyətlə, irəli sürülən iddia və ittihamların uydurma olduğunu bəyan edir. "News.am"ın məlumatına görə, MTX ölkənin digər saytı - "politik.am"ın rəsmi müraciətinə cavab olaraq bildirib ki, bu quruma onun sabiq direktoru A.Vanetsyan tərəfindən dövlət çevrilişi cəhdi barədə məlumat daxil olmayıb.



Bu arada N.Paşinyanın daha bir yaxını, "Mənim addımım" parlament fraksiyasının deputatı Qraç Akopyan informasiya agentliklərindən biri ilə söhbətində bəyan etmişdi ki, MTX-nin keçmiş direktoru Artur Vanetsyan, məhz dövlət çevrilişi cəhdinə görə, işindən azad olunub və istefaya göndərilib. Ancaq hazırkı MTX rəhbərliyi Qraç Akopyanın da bəyanatını şərh edərək bildirib ki, həmin bəyanata cinayət xəbərdarlığı kimi baxıla bilməz.

### "Od olmazsa, tüstü çıxmaz" reallığı...

Beləliklə, nəzərə alsaq ki, hakimiyyətin güc strukturu hesab edilən MTX də baş verənləri rəsmən təkzib edirsə, bu zaman həm də, belə bir nəticəyə gəlmək olar ki, Paşinyanın hakimiyyətində ciddi parçalanma mövcuddur. Çünki onun yaxın ətrafının bir, MTX-nin isə digər fərqli münasibət sərgiləməsi də, bu amili ehtiva edir. Hər halda, "od olmazsa, tüstü çıxmaz" reallığını da unutmayaraq, deyə bilərik ki, dövlət çevrilişinə cəhd olub, sadəcə, Paşinyan və onun komandası buraxılan belə bir ciddi səhvi ictimai rəydən yayındırmağa çalışır. Ancaq nə vaxta qədər, bax, bunu da çox yəqin ki, zaman özü göstərəcək.

**Rövşən RƏSULOV**

# AXCP-də qiyam gözlənilir

## Destruktivlikdən konstruktivliyə keçid etmək istəyənlər Əli Kərimlini postundan uzaqlaşdırmaq qərarını veriblər

***Xarici havadarlarının maliyyə dəstəyi ilə istənilən yola baş vurmağa hazır olan ifrat radikal dairələrin iç üzünü xalq yaxşı tanıyır. Həmin ifrat radikal düşərgənin əsas “oyunçular”ından biri olan AXCP sədri Əli Kərimlinin xaricdən aldığı “əmr”lər əsasında fəaliyyət göstərməsi və son vaxtlar böyük “maliyyə maxinasiya”larında adının hallanması, ümumilikdə, düşərgədəki ab-havanı tam əks etdirir. Biz elə də uzağa getməyərək “Freedom House”, “Human Richt Watch”, “Amnesty İnternational” və s. bu kimi xarici təşkilatların yaydıqları qərəzli və şantajçı hesabatlarında əsas “ittihamçı” kimi, məhz Ə.Kərimlinin adının hallanmasını xatırlaya bilərik. Əlbəttə ki, bütün bunların arxasında dayanan daha bir faktor AXCP sədrinin siyasi biznes üzərindəki maliyyə maxinasiyalarıdır.***

**Təməlində erməni lobbisinin dəstəyi dayanan xarici qurum və təşkilatların, bilavasitə Əli Kərimlini emissar seçməsi kimsəyə sirr deyil**

Məhz bu faktlardan sonra, hazırkı dövrə qədər Ə.Kərimlinin “maliyyə əməliyyatları”nın detallarının ortaya çıxması, AXCP daxilində sədrə qarşı etimadsızlığı bu gün də qoruyub-saxlamaqdadır. Çünki onun təlimatları səbəbindən, onlarla cəbhəçi ya həbslərə düşdü, ya təhsilləri yarımçıq qaldı, ya da ailələri onlardan üz döndərdi. Bu gün də eyni halın mövcudluğu baş verənləri bütün çılpaqlığı ilə ortaya qoymaqdadır. Hazırda isə AXCP sədrinin fakt qarşısında qalması və yaxın silahdaşlarına və “müttəfiq”lərinə cavab verməməsi, situasiyaya tam aydınlıq gətirir. Ə.Kərimli susmaqla bank əməliyyatlarını təsdiqləməklə yanaşı, “müttəfiqlər”inə də həmişəki kimi yenə də “atdığını” sübuta yetirir.

Sızan daha bir məlumata görə, bu yaxınlarda, hətta parlament seçkilərindən sonra AXCP daxilində anti-Kərimli kampaniyasına start veriləcək və onun sədrlik postundan birdəfəlik atılacağı barədə gizli qərar da qəbul olunub. Hətta daha bir informasiyaya görə, AXCP-də radikallıq və dağıdıcılıq siyasətindən uzaqlaşaraq, destruktivlikdən konstruktivliyə keçid etmək istəyənlərin də sayı çoxdur. Məhz bu məsələ çox yaxın vaxtlarda qeyd edilən fikirləri reallaşdıra bilər.

*Rövşən RƏSULOV*

Digər tərəfdən, ictimai rəy destruktiv düşərgənin xaricdə fəaliyyət göstərən anti-Azərbaycan şəbəkə ilə maliyyə əməkdaşlığı barədə faktları da yaxşı xatırlayır. Ümumiyyətlə, təməlində erməni lobbisinin dəstəyi dayanan xarici qurum və təşkilatların, bilavasitə Ə.Kərimlini emissar seçməsi kimsəyə sirr deyil.

Yeri gəlmişkən, hələ bir müddət əvvəl, AXCP sədrinin və onun yaxın adamlarının böyük maliyyə fırıldaqlarının faktlar əsasında media vasitəsi ilə üzə çıxarılması faktını da xatırlamaq olar. Məhz həmin faktlar əsasında cəbhəçilərin bir hissəsi, sözün əsl mənasında, uzun illər fəaliyyət göstərdikləri partiyaya tüpürüb-çıxdılar. Sənədlərdə Ə.Kərimlinin “gizli oyunları”, yəni “bank əməliyyatları” tam təfərrüatı ilə əks olunub. Bu bank materiallarının təhlili ortaya AXCP sədri üçün həddən artıq arzuedilməz faktlar çıxardı ki, Ə.Kərimlinin özü və qohumları təkcə bir il müddətində banklardan 8 milyon 603 min 364 manat pul çıxarmışdılar.

XATIRLATMA: Məhz həmin sənədlərdə Ə.Kərimlinin, oğlu Türkel Kərimlinin, əmisi oğlu Tofiq Kərimlinin, qayını Elnur Seyidovun, baldızı Aytən Seyidovanın adları çəkilirdi. Maraqlıdır ki, 2005-ci ildən bəri rəsmən heç yerdə işləməyən və bizneslə məşğul olmayan Ə.Kərimli bu qədər maliyyə vəsaitini hansı mənbələrdən əldə edib? Məlumatda göstərilir ki, Ə.Kərimlinin qayını Elnur Seyidov 2011-ci il yanvarın 28-dən 2012-ci il fevralın 24-dək banklardan 4 milyon 680 min manat nağd pul çıxarıb.

**Onun təlimatları səbəbindən, onlarla cəbhəçi ya həbslərə düşdü, ya təhsilləri yarımçıq qaldı, ya da ailələri onlardan üz döndərdi**

***Hökumətin iribuynuzlu və kiçikbuynuzlu heyvanların yalnız xüsusi ayrılmış qəssabxanalarda kəsilməsi ilə bağlı verilən qərarından sonra, heyvandarlıqla məşğul olan fermerlər, sözügedən qərara qarşı bir neçə gündür ki, etiraz aksiyaları keçirirlər. “Panorama.am”a istinadən xəbər verir ki, fermerlər bu dəfə İrəvan-Ararat avtomagistral yolunu kəsərək, etirazlarını davam etdirirlər.***



# Erməni fermerlər İrəvan-Ararat yolunu kəsdilər

## Etirazçılar: “Xalqı heç nə yerinə qoyublar”

“Ermənistanın müxtəlif vilayətlərindən yığışan fermerlər əvvəlcə hökumət binasının qarşısında aksiya keçiriblər, lakin onları bir neçə gündə kimsə qəbul etməyib və heç kim də binadan onların yanına getməyib” deyə yazan erməni portalı əlavə edib ki, artıq dünən - yanvarın 20-də onlar Ermənistanın vilayətlərində yolları bağlayacaqları ilə bağlı qərar qəbul ediblər.

“Heç kim bizim yanımıza düşmədi və deyən olmadı ki, havayı yerdə burada dayanıb özünüzü dondurmayın, onsuz da yanınıza kimsə enməyəcək, görüşməyəcək. Xalqı heç nə yerinə qoyublar. Bu gün biz yolu kəsmişik ki, sizə müraciət edək” deyə etiraz aksiyası iştirakçıları, nəhayət, onlarla görüşə gedən Ararat vilayətinin qubernatoru, həmin vilayətdən deputat seçilmiş Qarik Sarkisyana deyiblər.

**Fermerlər: “Məhsulumuzu pula çevirə bilmirik”**

“Bizə dəstək olmaq yerinə... Məgər banklar gözləyəcəklər ki, bizi qara siyahıya salmasınlar? Biz öz məhsulumuzu pula çevirə bilmirik” deyə aksiyaçılardan biri bildirib.

Qubernator baş nazirin müşaviri ilə görüşdüyünü desə də, etirazçılar “Bəs bu 20 günü harada idiniz?” sualını veriblər. Məsələnin köklü həll olunmayacağı halda, onlar İrəvan-Ararat yolu ilə yanaşı, digər vilayətlərdə də yolları bağlayacaqlarını, həmçinin, hava limanına aparan yolu da kəsəcəklərini bildiriblər.

*Rövşən RƏSULOV*

# Dağıdıcı müxalifəti dərin uçurum gözləyir

***Xaricdəki “müxalif söyüş” qrupu Əli Kərimlidən və Cəmil Həsənlidən imtina edir və onları satqınlıqda, eləcə də xəyanətkarlıqda günahlandırır. Konkret Qurban Məmmədov, Vidadi İsgəndərli, Orduxan Teymurxan və bu kimi digər şəxslər, artıq kurslarını dəyişərək, hər zaman təlimat alıb və bu təlimatlar əsasında fəaliyyətlərini qurduqları şəxslərlə əlaqələrini kəsirlər.***

Bu da, yeni bir qarşıdurmanın əsasının qoyulması deməkdir. Söhbət etdiyimiz “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov xaricdəki başıpozuq riyakar qüvvələrin Ə.Kərimli, C.Həsənli və A.Hacılı ilə yaranan gərgin münasibətlərinin bundan sonra daha da gərginləşəcəyini bildirdi.

O, baş verənlərin gözlənilən olduğunu da qeyd etdi. Səbəbini isə, onları idarə edən mərkəzi qüvvələrin tərəflərə ayırdığı maliyyə vəsaitinin bölgüsündə ziddiyyətlərin yaranması ilə əlaqələndirdi. T.Novruzov bildirdi ki, siyasi müxalifət rolunda tamaşa göstərən bu adamlar, daha doğrusu, siyasi oyunçular dəfələrlə birləşib, sonra yenidən ayrılıblar: “Sadəcə, ayrılmayıblar, bir-birini ittiham etməyə, bir-birinin “paxırını” açıb, ortaya tökməyə başlayıblar. Qəribədir ki, hər dəfə seçkilərə bir müddət qalmış birləşirlər, əlbəttə, əgər buna birləşmək demək olarsa, seçkilərin vaxtı çatanda isə, başlayırlar düşmənçiliyə. Bunun da iki mühüm səbəbi var. Birinci səbəb xarici sifarişlə bağlıdır. Xaricdən birləşmə sifarişi alırlar, özlərini birləşmiş kimi göstərirlər, elə ki, pul, yəni sifarişin haqqı ortaya gəlir, onun bölüşdürülməsində ixtilaf başlayır, məşhur təmsildə deyildiyi kimi, bir-birlərini dişləyib, didib, “al qana” qərq eləyirlər. İkinci səbəb isə, heç bir elektoratı, xalq arasında nüfuzu olmayan bu oyunbazların meydanı əldən vermək, inhisara aldıqları müxalifət düşərgəsini əldən buraxmaq istəməmələri ilə bağlıdır. Leninin bir məşhur sözü varıdı:kim ki, iş görmək istəyir, işini görür, kim ki, iş görmək istəmir, bəhanə axtarır. Yəni bizim müxalifət dəllalları ikincilərdəndi. Əllərindən heç bir iş gəlmir, bazarlarını da kimlərəsə buraxmaq istəmirlər. Bir yerdə ki, pul hərisliyi digər istəklərdən öndə gəlir, orda nəyəsə nail olmaqdan söhbət belə gedə bilməz. İstər adlarını çəkdiyiniz xaricdə oturub



Azərbaycana hədyanlar yağdıran sapsız baltalar olsun, istər də özünü “ana”, “ata”, “baba” müxalifət adlandırıb, meydanı əldən verməK istəmyən siyasət dəllalları olsun, onların bir maraqları var, o da daha çox pul qazanmaq. Allah belə bazarı kəssin, bir bazar ki, millətə və dövlətə qara yaxmaqla qazanmağa xidmət edir, onun bir adı var: şərəfsizlik! Şərəfsizliyə bilərəkdən gedən bu adamların birləşmələri də, ayrılmaları da eynilə şərəfsiz addımlarla müşayiət edilir. Dünən bağrına basıb, qardaş dediyi adamı, pul naminə, bu gün satqın adlandırmağın özü şərəfsizliyin ən bariz təzahürüdür. Qaldı ki, yeni qarşıdurmanın əsasının qoyulmasına, bu əsas elə yalançı birləşmə oyunları başlayan zaman qoyulub. İndi artıq o var və getdikcə də qızışacaq”.

*GÜLYANƏ*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

23 yanvar

# Səs

Son səhifə

# Sabah Bakıya mövsümün ilk qarı yağacaq

***Yanvarın 24-də şimaldan gələn soyuq hava kütləsinin ölkə ərazisinə daxil olması nəticəsində ilkin proqnozumuza görə, paytaxt sakinləri bu qış fəslinin ilk qarını müşahidə edə bilərlər. Bu barədə AZƏRTAC-a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktoru Umayra Tağıyeva məlumat verib.***



Departament direktorunun sözlərinə görə, yanvarın 23-də güclü cənub-qərb küləyi əsəcək, yanvarın 24-də güclü şimal-qərb küləyi ilə əvəzlənəcək: "Bakıda və Abşeronda yanvarın 24-dən 25-i səhərədək havanın yağıntılı keçəcəyi gözlənilir. Yağıntının arabir intensivləşəcəyi, yanvarın 24-dən 25-nə keçən gecə bəzi yerlərdə yağışın sulu qara keçəcəyi ehtimalı var. Yanvarın 24-də havanın temperaturu ötən günlərlə müqayisədə 4-6° enəcək, 0-3° isti olacaq.

Azərbaycanın rayonlarında yanvarın 23-ü axşamdan 25-dək ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, qeyri-sabit keçəcəyi proqnozlaşdırılır. Havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Yanvarın 23-24-də güclü külək olacaq, 23-də cənub-qərb küləyinin sürəti saniyədə 15-20, arabir 23-28, ayrı-ayrı yerlərdə arabir 30-35 metrə çatacaq. Yanvarın 24-də isə şimal-qərb küləyi 15-20, arabir 25-30 metr/saniyəyə kimi güclənəcək. Avtomobil yollarında dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı ehtimal edilir".

# Yeni bir virus xəbərdarlığı



İsraildən olan həkim, yaxınlaşan bir qlobal epidemiya barədə proqnoz verib. SİA RİA Novostiyə istinadən xəbər verir ki, bu proqnoz Həkimlərin Ümumdünya Həmkarlar İttifaqının rəhbəri, İsraildən olan həkim Leonid Eydelmana məxsusdur. "Bilirik ki, yaxın bir neçə ildə dünyada böyük bir epidemiya təhlükəsi gözlənilir. Bu, yeni bir virus olacaq. Hələ bilmirik, amma bəlkə də koronaviruslardan biri olacaq. Coronavirus adətən qrip və öskürək ilə yayılması xüsusiyyəti ilə tanınır. Ancaq dəyişikliklər var və artıq viruslar da dəyişir, mutasiya edir. 2003-cü ildəki dəyişikliklərdən biri SARS adlı ağır bir epidemiyaya səbəb olub. Çində bir çox həkim və tibb bacıları bu virusa yoluxub və hətta ölüblər də. Virusun digər bir təzahürünə Yaxın Şərqdə də rast gəlinib. Bu, Yaxın Şərq (Middle East) sözü ilə MERS adlanıb", deyə Eydelman bildirib.

O, xatırladıb ki, bəşər tarixində artıq qlobal epidemiya halları dəfələrlə olub. Ən məşhur və ölümcül biri, bir əsr əvvəl dünyanı öz təsiri altına almışdı.

"Tarixdəki ən ölümcül epidemiyalardan biri, Avropaya girən Amerikan əsgərləri tərəfindən keçirilmiş İspan qripi idi. Müxtəlif məlumatlara görə, bu səbəbdən 50 ildə 100 milyon arasında insan ölüb. Son illərdə bu tipli epidemiyanın ola biləcəyi də gözlənilir", deyə Həkimlərin Ümumdünya Həmkarlar İttifaqının başçısı xəbərdarlıq edib.

# Metroda cibgirliklə məşğul olan şəxs tutulub



Metro stansiyalarında, vaqonlarda və platformalarda sərnişinlərin sıx olduğu vaxtlarda cibgirliklə məşğul olan şəxs Bakı Şəhər Baş Polis İdarəsi Cinayət Axtarış İdarəsi və Metropolitendə Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəllər məhkum olunmuş paytaxt sakini Elçin Məmmədov keçirilən əməliyyat zamanı tutulub. Araşdırma zamanı onun cari il yanvarın 19-da günün müxtəlif saatlarında metronun "İnşaatçılar" və "28 May" stansiyalarında iki qadının cibindən mobil telefon oğurladığı məlum olub. E.Məmmədov saxlanılan zaman onun üzərindən cibgirlik yolu ilə əldə etdiyi mobil telefonlardan biri aşkar olunaraq maddi sübut kimi götürülüb. Araşdırma zamanı saxlanılan şəxsin təkcə metroda yox, paytaxt ərazisində sərnişin avtobuslarında da cibgirliklə məşğul olduğu məlum olub.

Faktlarla bağlı saxlanılan şəxs barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq-əməliyyat tədbirləri davam etdirilir. Elçin Məmmədovun paytaxt ərazisində digər analoji cinayətlər etdiyi istisna olunmur. Onun əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə ərazi üzrə polis idarə, şöbə və bölmələrinə, habelə Daxili İşlər Nazirliyinin "102" Zəng Mərkəzinə məlumat verə bilərlər.

# "Beyl dünyanın ən yaxşılarından biridir"




"Real"ın futbolçusu Qaret Beylin meneceri Conatan Barnett oyunçunun icarəyə göndəriləcəyi barədə yayılan xəbərlərə münasibət bildirib. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, o, 30 yaşlı uelsli yarımmüdafiəçinin "kral klubu"ndan ayrılmaq fikrində olmadığını söyləyib: "O, dünyanın ən yaxşı oyunçularından biridir. Niyə icarə üçün hər yerə getməlidir? Bu, sadəcə gülüncdür. Hər şey dəyişə bilər, lakin onun icarəyə göndərilməsi cəfəngiyatdır. Beyl bu komandada xoşbəxtdir. Ümid edirəm ki, "Real"la bir neçə kubok qazanacaq".

Qeyd edək ki, 2013-cü ildən Madrid təmsilçisinin formasını geyinən Q.Beyl bu mövsüm La Liqada 12 matça çıxaraq 2 qol vurub.

# Mbappe: "Liverpul" maşın kimidir"




"Liverpul"un etdikləri inanılmazdır. Maşın kimidilər. Bir ritm tutub, durmadan artırırlar. Heç bir oyunda uduzmayıblar". Bu sözləri PSJ-nin futbolçusu Kilian Mbappe BBC-yə açıqlamasında deyib. Fransalı hücumçu Premyer Liqanın şəriksiz lideri haqda müsbət fikirlər səsləndirib:

"Onların oyunlarını izləyəndə hər şeyin çox adan olduğunu düşünürsünüz, amma əslində elə deyil. Oyunçular matçlara düzgün köklənirlər, üç gündən bir meydana çıxıb, qalib gəlirlər. "Liverpul" çox yaxşı komandadır və çox yaxşı baş məşqçiləri var".

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**